Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

28
MART
2019-cu il
№ 54 (3952)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur


# ERMƏNİ MEDİASININ İLHAM ƏLİYEVƏ NÖVBƏTİ BÖHTANI - «AZƏRBAYCAN PREZİDENTİ RUSİYAYA QALIN BİR QOVLUQ VERİB»

səh. 8

Paşinyan indiyədək danışıqları sabotaj etməkdən atəşkəsin açıq pozuntusuna getdi...
səh. 4

Azərbaycanın geosiyasi kombinasiyalarının daha bir nəticəsi - Trampın diqqəti Türkmənistana yönəldi...
səh. 8

Ermənistan XİN başçısının Lavrovla məxfi görüşünün pərdəarxası - danışıqlar ərəfəsində müəmmalı hadisə...
səh. 5

80-ci illərin sonunda Qarabağ münaqişəsi Azərbaycana qarşı separatizm və terror dalğasında başladı...
səh. 10

İstanbulda məşhur Aya Sofyanın məscidə çevrilməsinin zamanı yetişib...
səh. 7

Banklar daha kreditlərə yüksək faizlər tətbiq edə bilməyəcək...
səh. 13

Nazirliyin Aqrar Tədqiqatlar Mərkəzi soğanın manat yarıma qalxmasını necə izah etdi...
səh. 13

Ali təhsil qanununda nələr olsun...
səh. 14



## Ermənistanın Azərbaycan Ordusunu içəridən «partlatmaq» gedişi - Zakir Həsənova qarşı mənəvi terrorun iki əsas hədəfi...

səh. 5





**Azərbaycan Prezidenti Vyana görüşünə daha güclü mövqe sahibi kimi qatılır**
səh. 9

Prezidentin sosial islahatlar paketində mahiyyətcə seçilən yeni istiqamət - hərbi-vətənpərvərlik tərbiyəsi...
səh. 3

Trampın Colan qərarına görə Azərbaycanın ABŞ-dan gözlədiyi izah - «Colan qərarının Qarabağ separatçılarına heç bir bağlılığı olmayacaq»
səh. 6

səh. 3
Paşinyanın Vyana görüşünə konstruktiv platforma ilə gələcəyinə ümid çox aşağıdır



səh. 6
Ermənistanın böyük şiə imamını təhqir etməsinə İran necə dözdü...



səh. 7
Böyük Ərəb dünyası Trampın Colan qərarı qarşısında "cınqırını" da çıxarmadı...



səh. 15
Azərbaycanda növbəti unikal hadisə - dustaqlar üçün peşə təhsili standartları rəsmiləşdi...



səh. 14
"Diqlas" yanğını - Bakıdakı böyük ticarət mərkəzlərinin sığorta problemi gündəmdə...





## Lənkəranda yol tikintisinə 2,9 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Lənkəran rayonunun Hirkan-Mamusta-Siyavar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, on bir min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Hirkan-Mamusta-Siyavar avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,9 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

## Yunus Oğuzun "Ovçu" romanı Türkiyədə də çap edilib

**Yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuz yaradıcılığında növbəti uğura imza atıb.**

Baki-xeber.com xəbər verir ki, əsərləri türk dünyasında da böyük maraq doğuran və ayrı-ayrı xalqların dilinə tərcümə olunan yazıçının "Ovçu" romanı Türkiyədə Anadolu türkcəsində çapdan çıxıb.

Kitab Türkiyədəki Cahan yayıcı Erol Cahangir nəşriyyatı tərəfindən çap edilib. Qeyd edək ki, Yunus Oğuzun "Ovçu" romanı 2016-cı ilin aprel döyüşlərinə həsr olunub.

# Prezident İlham Əliyevin Ermənistan baş naziri ilə növbəti görüşünün yeri və vaxtı rəsmən açıqlandı



**Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın növbəti görüşünün yeri və vaxtı açıqlanıb.**

Bu barədə baki-xeber.com-a Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Məlumata əsasən, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin təklifi əsasında Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə müzakirələr aparmaq məqsədilə 29 mart tarixində Avstriyanın paytaxtı Vyana şəhərində görüşünün keçirilməsi barədə razılıq əldə olunub.

# Azərbaycan Ordusunun nüfuzuna düşməncəsinə böhtan atanlara general-leytenantın tutarlı cavabı...

**Bu gün Azərbaycan Ordusunda həll edilməyən heç bir məsələ yoxdur. "Trend" xəbər verir ki, bunu müdafiə nazirinin müavini, Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev Azərbaycan Ordusunda neqativ halların olması ilə bağlı yayılan böhtan xarakterli məlumatlara münasibət bildirərkən deyib.**

Nazir müavini bildirib ki, xidmətin spesifik fəaliyyətinə baxmayaraq, ordu ictimaiyyət üçün açıqdır: "Biz digər dövlət orqanları, beynəlxalq, humanitar, ictimai, qeyri-hökumət və digər təşkilatlarla yaxından əməkdaşlıq edirik. Müdafiə Nazirliyi ilə müxtəlif təşkilatlar arasında birgə fəaliyyət üçün illik planlar hazırlanır. Açıqlıq nümunəsi müntəzəm olaraq valideynlərin və ailə üzvlərinin iştirakı ilə keçirilən "Açıq qapı" günləridir, burada Mudafiə Nazirliyinin rəhbərliyi, bütün səviyyələrdən olan komandir-rəis heyəti təklif və şikayətləri nəzərdən keçirir və mövcud problemləri həll edirlər. Bu, həm arxada, həm də müdafiənin ön xəttində yerləşən hərbi hissələrə eyni dərəcədə şamil olunur.

Mən müsbət inkişafı olan ordu fəaliyyətinin digər aspektlərinə də toxuna bilərdim. Bu gün Azərbaycan Ordusunda həll edilməyən heç bir məsələ yoxdur. Bununla yanaşı, bəzi insanlara və insanların dairəsinə bizim müvəffəqiyyətlərimiz rahatlıq vermir. Onlar hər yerdə yalnız neqativ görürlər. Onların mahiyyəti budur. Dəfələrlə artırılan itkilər, şişirdilən xəyanət faktları, iddia edilən köhnə hərbi texnika satınalmaları, korrupsiya sxemləri barədə uyğun olmayan yanlış məlumatlar, ordu rəhbərliyini birbaşa təhqir etmək və s. ölkənin müdafiə və təhlükəsizliyinə görə məsuliyyət daşıyan əsas strukturlardan birinin nüfuzuna xələl gətirmək cəhdindən başqa heç bir şey deyil".

General-leytenant qeyd edib ki, bu prosesdə iştirak edən, dövlət, xalq və qanun əleyhinə fəaliyyətinə görə Azərbaycandan gedən "ekspertlər" ucuz bir avtoritet qazanmaq istəyirlər. Xaricdə qrantlar və sədəqələr, o cümlədən erməni lobbisi hesabına yaşayanlar məqsədyönlü şəkildə orduya və davam edən islahatlara böhtan atırlar:

"Onlar açıq şəkildə düşmən təbliğatı aparan, əksər hallarda "sensasiyalı məlumatları" Ermənistanın xüsusi xidmət orqanlarının dezinformasiyasından, həmçinin zamanında özünü xalq və ordu qarşısında biabır edən ölkəmizdəki züytutanlardan əldə edərək düşmən dəyirmanına su tökürlər. Mən sosial şəbəkələrdə ordu mövzusu ilə bağlı bütün müzakirələri birmənalı şəkildə qınayıram və bir daha həmin şəxsləri bu cür təxribatçı fəaliyyətlərini dayandırmağa çağırıram".



DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu - Abunə!

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**

3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96

**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83

**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Yeni Zelandiya terrorçusu ilə Avstriyadakı sağçı-radikal qrupun əlaqəsi ortaya çıxdı

**"Yeni Zelandiyada terror törətmiş Brenton Tarrantla Avstriyadakı "İdentitarist nəsil" hərəkatının rəhbəri Martin Sellner arasında əlaqənin olması ehtimalı ilə bağlı araşdırma başlayıb.**

Baki-xeber.com xəbər verir ki, istintaq çərçivəsində evində axtarış aparılan Sellnerə soyadı Zelandiyada terror törətmiş şəxslə eyni olan bir hesabdan 1500 avro yardım edildiyi ortaya çıxıb.

Avstriya kəşfiyyatı müəyyənləşdirib ki, Yeni Zelandiya terrorçusu Brenton Tarrant ötən ilin noyabrında bu ölkədə səfərdə olub. O, Vyanada və Avstriyanın başqa şəhərlərində də olub.

Avstriya baş naziri Sebastyan Kruz Yeni Zelandiyada terror törətmiş Brenton Tarrantın Avstriyada bağlantısının ortaya çıxarıldığını bildirib. "Yeni Zelandiyada terror törətmiş şəxslə Avstriyada fəaliyyət göstərən sağçı-ekstremist "İdentitarist nəsil" hərəkatı arasında maliyyə dəstəyi və əlaqə olduğu müəyyənləşdirilib" - deyən S.Kruz bu əlaqənin detallı şəkildə araşdırılacağını bildirib.



**Prezident İlham Əliyevin apardığı geniş sosial siyasət tədbirləri bu ilin əvvələndən də davam etdirilməkdədir. Belə ki, görülən işlər çərçivəsində böyük sosial paketə aid olan bütün müavinət növlərinin məbləği artırılıb. Elə müavinət növləri var ki, onlar gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi və vətəndaş kimi formalaşması ilə birbaşa bağlıdır.**

# Prezidentin sosial islahatlar paketində mahiyyətcə seçilən yeni istiqamət - hərbi-vətənpərvərlik tərbiyəsi...

***Vüqar Rəhimzadə:** "Sözügedən qərar gənc nəslin hərbi-vətənpərvərlik hisslərinin daha da güclənməsinə öz müsbət təsirini göstərəcək"*



*"Bunun həm sosial, həm də mənəvi baxımdan əhəmiyyəti böyükdür"*

Yəni bu növ müavinətlər şərti olaraq qruplaşdırılsa, minimum əməkhaqqının və minimum pensiyaların artırılmasından fərqlənir. Məsələn, Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı döyüşlərdə şəhid olanların ailə üzvləri, fiziki sağlamlığını itirmiş vətəndaşlar, həmçinin, Böyük Vətən Müharibəsi əlilləri, hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslər, 20 Yanvar və Çernobıl əlillərinin müavinətləri, onlara buna görə verilən pensiyalar artırılıb. Dövlətin sözügedən təbəqəyə göstərdiyi diqqətin davamı olaraq ölkə başçısının 25 fevral 2019-cu il tarixdə imzaladığı sərəncama əsasən, müharibə veteranlarına Prezidentin aylıq təqaüdü təyin olunub. Sərəncama uyğun olaraq, müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət (55 manat) əvəzinə, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə (11 manat) əvəzinə Prezidentin 80 manat məbləğində aylıq təqaüdü veriləcək. Bu da 80 min nəfərdən ibarət müharibə veteranlarına dövlət dəstəyinin əhəmiyyətli şəkildə artırıldığından xəbər verir. Bu onların sosial vəziyyətini yaxşılaşdırmaqla yanaşı, gənc nəsildə hərbi-vətənpərvərlik hisslərinin daha da inkişaf etməsinə öz müsbət təsirini göstərəcək. Yəni sözügedən qərar təkcə sosial əhəmiyyət kəsb etmir. Bu qərarın həm də hərbi-vətənpərvərlik baxımından böyük əhəmiyyəti var.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, sözügedən qərar gənc nəslin hərbi-vətənpərvərlik hisslərinin daha da güclənməsinə öz müsbət təsirini göstərəcək: "Ona görə də ölkə başçısının məlum qərarı mütərəqqi əhəmiyyət kəsb edir. Sosial qərar olsa da, hərbi-vətənpərvərlik baxımından bunun əhəmiyyəti böyükdür. Bu, ordu quruculuğuna ümumən müsbət təsir göstərəcək. Əsgərlərə, zabitlərə, ümumiyyətlə, orduda xidmət edən hər bir kəsə dövlətin göstərdiyi qayğı, bununla bağlı ortada olan imtiyazlar göz önündədir. Milli qəhrəmanlara, şəhid ailələrinə, müharibə əlillərinə göstərilən yüksək diqqət göz önündədir. Bunun həm sosial, həm də mənəvi baxımdan əhəmiyyəti böyükdür. Ən başlıcası, bu sahədə görülən işlər gənc nəslin vətənpərvərlik hisslərinin daha da inkişafına xidmət edəcək. Gənc nəslin yaxşı mənada tərbiyə olunmasında, onların Vətənə, dövlətə bağlı olmasında mühüm rol oynayacaq. Xüsusən də gənc nəslə vətənpərvərlik ruhunun aşılanmasında mühüm töhfələr verəcək. Bir sözlə, gənc nəslə bu kifayət qədər örnək olacaq. Bu, dövlətin, cənab Prezident İlham Əliyevin sözügedən sahəyə xüsusi diqqətinin məntiqi nəticəsidir".

*Cəmilə QARAYEVA*

---

**"Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında Vyanada keçiriləcək görüş yüksək səviyyədə sıra ilə dördüncü görüş sayılacaq. Əvvəlki Düşənbə, Sankt-Peterburq və Davos görüşləri məhz Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən formal və ayaqüstü görüş effektindən başqa nəticə hasil edə bilmədi və məzmunlu danışıqlara çevrilmədi".**

# Paşinyanın Vyana görüşünə konstruktiv platforma ilə gələcəyinə ümid çox aşağıdır...

***Aydın Quliyev:** "Vyana görüşü ya danışıqların buzunu qıracaq, ya da..."*



Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

O bildirib ki, Ermənistan rəhbərliyi Azərbaycanla sülh danışıqlarına pozucu və qeyri-praktik yanaşmasını əvvəlki ünsiyyətlərdə fakt-ki dəyişə bilmədi və əslində dəyişmək istəmədi: "Paşinyan əvvəlki görüşlərə konseptual mənada qətiyyən hazır gəlməmişdi, aydın təsəvvürə və münaqişənin həlli üçün bitkin bir platformaya malik deyildi. Bunun da nəticəsi sadəcə nəticəsizlikdən ibarət oldu".

Siyasi şərhçi deyib ki, Paşinyanın Azərbaycan Prezidenti ilə növbəti 29 mart görüşünə nə qədər hazır olub-olmadığını zaman göstərər: "İndi bütün dünya anlayır ki, Azərbaycan özü üçün qeyri-substantiv danışıqlar limitini bitmiş sayır və sadəcə danışıq xətrinə danışıq oyunlarına çox dözməyəcək. 29 mart görüşü ərəfəsində Paşinyanın format oyununu hələ də müxtəlif versiyalarda fırlatması və sərhəddə əsgər ölümü ilə nəticələnmiş açıq təxribata getməsi onun bu görüşə əvvəlkilərdən fərqli olaraq konstruktiv platforma ilə gələcəyinə ümidləri heçə endirir. Lakin onun nisbətən konstruktiv və məzmunlu danışıqlara azacıq meylli ola biləcəyinə yeganə ümid onunla bağlıdır ki, həmsədrlər, yüksək Avropa komissarları danışıqlar formatının dəyişdirilməsinin yolverilməz olmasını və şərtsiz danışıqlara başlamağın zəruriliyini açıq bəyan ediblər".

A. Quliyev qeyd edib ki, bu bəyanatların Ermənistan rəhbərinə azacıq da olsa təsir göstərə biləcəyi ən həssas ehtimal sayılır: "Konkret baxılsa, Paşinyan münaqişə ilə bağlı həmsədrlərin və Avropa Parlamentinin yenicə qəbul etdikləri sənədlərə uyğunlaşmayacağı təqdirdə görüşdən əhəmiyyətli yekunlar gözləmək çətindir. Ancaq əlbəttə, 29 mart görüşünə razılıq vermək Azərbaycan Prezidentinin təcavüzkar ölkə rəhbərinə sonuncu konstruktiv şanslardan birini tanıması baxımından əhəmiyyətlidir. Azərbaycan növbəti dəfə sübut edir ki, münaqişənin hərbi yolla qalibiyyətli həlli üçün hər cür üstün imkanlara malik olsa da, dünya birliyi və insanlığın sülh çağırışlarına adekvat reaksiya göstərməkdə son təmkinliyini əsirgəmir. Paşinyan azacıq konstruktiv olacağı təqdirdə münaqişənin həllində böyük və hətta sıçrayışlı irəliləyişlər dərhal başlaya bilər. Xüsusilə də status-kvonun dəyişməsi və Ermənistanın DQ ətrafındakı torpaqların azad edilməsinə razılıq verməsi görüşün məhsuldarlığını müəyyən edən əsas amil olacaq. Ancaq açıq deyək ki, Paşinyanın Vyana görüşünə prinsipial fərqli bir davranışla gəlməyə hazırlaşdığını göstərən elə bir əlamət hələlik görünmür.

**Bütün hallarda, bu görüş maraqlı beynəlxalq təşkilatlara qəti şəkildə Ermənistanın sülh istəmədiyini nümayiş etdirə bilər. Vyana görüşü ya məzmunlu danışıqların buzunu qıracaq, ya da Azərbaycanı hərb variantı seçiminə həlledici dərəcədə yaxınlaşdıracaq".**

**Ermənistan hakimiyyəti nə qədər gizlətməyə çalışsa da, orduda fərarilik, nizamnamədənkənar hərəkətlər, əsgərləri hərbi işdən kənar sahələrdə, şəxsi həyətlərdə nökər kimi işlətmək, ölüm faktları və başqa bu kimi hallar həmişə olub, bu gün də davam edir.**

# Ermənistanda cəzalanmış əsgərləri Qarabağda hərbi xidmətə göndərirlər...

*Aydın Quliyev: "Erməni əsgərlərin cəza tədbiri kimi Dağlıq Qarabağa göndərilməsi Paşinyanın öz oğlu üzərində qurduğu aldadıcı oyunları alt-üst edir"*



Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, ekspert Aydın Quliyev Ermənistanda hərbi hissələrdən birində qiyama cəhdə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, Ermənistanda əsgər anaları uzun müddətdir etiraz edir və hərbi-siyasi rəhbərliyin sıravi əsgərlərə münasibətdə qeyri-insani və istismarçı fəaliyyətlərini ifşa edirlər: "Hələ 90-cı illərin sonlarından başlayaraq "əsgər anaları" etiraz hərəkatının indiyə qədər davam etməsi orduda dağılma və özbaşınalıqlar tendensiyasının getdikcə gücləndiyindən xəbər verir. Ermənistan ordusunda əsgərlərin etirazları öz məzmununa görə çoxcəhətlidir. Ancaq işğalçı ölkənin ordusunda ən güclü etiraz və narazılıq dalğası Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsində hərbi xidmətlə bağlıdır. Orduda bu xarakterli əsgər etirazları əslində son illərin təzahürüdür və bu prosesin başlanması Azərbaycanın dünya miqyasında apardığı dəqiq diplomatiya sayəsində Ermənistanın təcavüzkar siyasətinin mahiyyətinin tam açılması ilə bağlıdır. İndi bütün dünyada və Ermənistan cəmiyyətinin özündə mütləq əksəriyyət yaxşı başa düşür ki, Dağlıq Qarabağ işğal edilmiş bölgədir, Azərbaycana məxsusdur, gec-tez geri qaytarılacaq və bu səbəbdən erməni gənclər arasında işğal edilmiş torpaqlarda xidmət əleyhinə etirazlar kütləviləşir. Ermənistanda son günlər baş qaldıran açıq qiyam halları həm də gənclərin təcavüz siyasətinin gələcəyinə ümidsiz yanaşmasının nəticəsidir və göstərir ki, yeni baş nazir Paşinyan da erməni ordusunu keçmiş hakimiyyətlərdən miras qalmış dağıdıcı və tənəzzül proseslərindən xilas edə bilməyib".

Ekspert bildirib ki, erməni ordusunda qiyam şəkli alan əsgər narazılıqları hərbi intizamsızlıq, zabitlərin onlara gəlir mənbəyi kimi baxması, ölkədəki ümumi iqtisadi böhran və dövlətin açıq-aşkar təcavüzkar siyasətinin nəticələridir: "Hadisələr orduda etirazların qiyam və digər müxtəlif formalarda getdikcə güclənəcəyini deməyə xeyli əsas verir. Ermənistan ordusunda etirazların artması Paşinyanın bir müddət əvvəl atdığı məlum bir populist addımın da tam iflası sayıla bilər. Belə ki, Paşinyan öz oğlunu populist mülahizələrlə işğal olunmuş Dağlıq Qarabağ ərazisində hərbi xidmətə göndərəndə bu hadisənin erməni gəncləri Azərbaycanın işğal altındakı ərazilərində xidmətə həvəsləndirəcəyini, habelə neqativ proseslərin qarşısını alacağını düşünmüşdü. Bu gün qiyamçı əsgərlərin cəza tədbiri kimi Dağlıq Qarabağa göndərilməsi Paşinyanın öz oğlunun üzərində qurduğu aldadıcı oyun ssenarilərinin alt-üst olduğunu göstərir və bir daha təsdiqləyir ki, erməni gənclər Azərbaycanın işğal edilmiş ərazilərində qətiyyən könüllü xidmət etmək istəmirlər".

A.Quliyev vurğulayıb ki, cəzalandırılmış əsgərlərin Dağlıq Qarabağa göndərilməsi və burada hərbi xidmətə məcbur edilməsi Ermənistanın işğalçılıq və təcavüzkarlıq siyasətinin sonadək ifşa olunduğunun bariz göstəricisidir: "Bu gün erməni ordusu içərisində dövlətin təcavüzkar siyasəti əleyhinə etirazların üzə çıxması və güclənməsi Azərbaycan dövlətinin hərtərəfli siyasətinin böyük nəticəsi kimi də nəzərdən keçirilə bilər".

Qeyd edək ki, Yerevanda bir qrup əsgər anası etiraz aksiyası keçirib. Ermənistanın Mehri şəhərində hərbi xidmətdə olan əsgərlərdən birinin anası oğlundan bir neçə gün xəbər ala bilmədiyini deyib. Daha sonra onun Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə göndərildiyi məlum olub.

**Ermənistan KİV-i yazır ki, Mehridə 20-yə yaxın əsgər zabitlərdən birinə etiraz olaraq hərbi hissəni tərk edib. Həmin əsgərlərin bir hissəsini cəzalandıraraq Dağlıq Qarabağa cəbhə xəttinə göndəriblər.**

---

**Məlum olduğu kimi, ötən il Ermənistanda baş verən hakimiyyət dəyişikliyindən sonra Nikol Paşinyan baş nazir oldu. Paşinyan baş nazir olandan sonra Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı aparılan danışıqlardan müxtəlif bəhanələrlə yayınmaq kursu götürdü.**

# Paşinyan indiyədək danışıqları sabotaj etməkdən atəşkəsin açıq pozuntusuna getdi...

*Məhəmməd Əsədullazadə: "Hesab edirəm ki, bu, danışıqların pozulmasına hesablanan bir təxribatdır"*




*"Cəbhədə bu təxribatı məhz Rusiyaya bağlı "Qarabağ klanı" həyata keçirir"*

O vaxt bəziləri bunu onunla əlaqələndirirdilər ki, Paşinyan hakimiyyətdə hələ tam bərkiməyib. Söhbət parlamentdə təmsil olunan əvvəlki hakimiyyətin güclü olmasından gedirdi. Ancaq ötən ilin dekabrında Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərində Paşinyanın tərəfdarları qalib gələrək həlledici üstünlüyə sahib oldular. Bu səbəbdən danışıqların keçiriləcəyinə ümidlər artdı. Bununla yanaşı, Paşinyanın danışıqların formatının dəyişdirilməsi ilə bağlı təşəbbüsləri fiaskoya uğradı. Beynəlxalq qurumlar bunu rədd etdilər. Onu da qeyd edək ki, Paşinyan baş nazir olandan sonra cəbhədə atəşkəsin pozulması halları əhəmiyyətli dərəcədə azalıb. Ermənistanda əvvəlki hakimiyyət dönəmində sutka ərzində atəşkəs ən azı 60 dəfə pozulurdusa, Paşinyan baş nazir olandan sonra atəşkəsin pozulması halları 20-30 dəfə arasında dəyişir.

O da məlumdur ki, Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın bir neçə gün sonra Vyanada görüşü gözlənir. Belə bir görüş ərəfəsində atəşkəs pozulub və hərbçimiz şəhid olub. Bu arada Ermənistan tərəfi həm də müxtəlif ideoloji təxribatlara start verib. Ölkə mətbuatı iddia edir ki, guya Azərbaycan tərəfi mühəndis-istehkam qurğularını bərkidir, cəbhə xəttini önə çəkmək istəyir və s.

Maraqlıdır, danışıqlar ərəfəsində bütün bunların baş verməsində, daha konkret desək, atəşkəsin açıq-aşkar pozulmasında Ermənistanın məqsədi nədir?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə kontekstdən yanaşdı: "Ermənistanın Vyana görüşü öncəsi atəşkəsi pozması, şəhid verməyimiz əsasən işğalçı ölkədə ordunun Paşinyan iqtidarına siyasi baxımdan tabe olmamasından irəli gəlir. Hazırda Ermənistan cəmiyyətində radikal qüvvələr Qarabağla bağlı mövcud iqtidara təzyiq siyasəti həyata keçirirlər. Məhz orduda belə qüvvələr var və yetərincə təsir imkanlarına malikdirlər. Paşinyanla Azərbaycan Prezidentinin Vyana görüşü öncəsi işğalçı ölkənin təxribatı təsadüfi deyil. Hesab edirəm ki, bu, danışıqların pozulmasına hesablanan bir təxribatdır. Ermənistanda yeni hakimiyyətlə cəmiyyətdə oturuşmuş "Qarabağ klanı" arasında ciddi mübarizə gedir. Cəbhədə bu təxribatı məhz Rusiyaya bağlı "Qarabağ klanı" həyata keçirir. Azərbaycan artıq Vyana görüşündən sonra konkret addımlar atacaq. Vyana görüşündə irəliləyiş olmayacaqsa, ondan sonra rəsmi Bakı güc amilinə üstünlük verməlidir. Ermənilərin ideoloji təxribat xarakterli kampaniyası danışıqları pozmağa yönəlib. Bu ideologiya erməni toplumunda əsas ana xətdir. Məhz münaqişənin həllinə mane olmaqdan ötrü indiki situasiyada buna əl atıblar. O baxımdan yaşananlar təsadüfi deyil və məqsədyönlü şəkildə həyata keçirilir".

***Vidadi ORDAHALLI***

# Ermənistanın Azərbaycan Ordusunu içəridən "partlatmaq" gedişi - Zakir Həsənova qarşı mənəvi terrorun iki əsas hədəfi...

**Erməni KİV-ləri öz ənənələrinə sadiq qalaraq, Azərbaycanın yüksək post tutan məmurları barədə hədyanlar yağdırmaqda davam edirlər. Çox maraqlıdır ki, bu dəfə onlar Azərbaycanın müdafiə naziri Zakir Həsənovu hədəf seçiblər. Bir neçə erməni KİV-i sosial şəbəkələrdə yayıldığı iddia olunan bir videoreportaja istinad edərək Azərbaycanın müdafiə naziri haqda geniş böhtan kampaniyasına start verib.**



Həmin materiallarda iddia edilir ki, guya araşdırmanı "Azad Azərbaycan" adlı bir hərəkat hazırlayıb. Ancaq təqdim olunan videomaterialı izləyəndə aydın şəkildə görünür ki, sual verənlərin rus dili ləhcəsi sırf ermənilər üçün xarakterikdir. Ən maraqlısı isə budur ki, həmin materialda Z.Həsənovun keçdiyi həyat yoluna kölgə salmağa çalışılır. Nə qədər maraqlı olsa da, "araşdırma" müəllifləri Z.Həsənovun şəxsi həyatı, atası ilə bağlı bəzi məqamları da materialda qeyd ediblər. İlk baxışdan da bəlli olur ki, bu, ermənilərin azərbaycanlıların adından istifadə edərək, ortaya atdığı dezinformasiyadır. Belə bir materialın erməni KİV-lərində baş mövzuya çevrilməsi həm də həssas dönəmə təsadüf edir. Münaqişə tərəfləri arasında danışıqların reallaşdığı və intensiv hal aldığı dönəmdə ermənilərin müxtəlif aspektlərdən pozucu fəaliyyəti nəzərə çarpır. Biz bunu son günlər ərzində cəbhə xəttində gərginləşən vəziyyətdə, hətta Azərbaycan Ordusunun şəhid verməsində, erməni rəsmilərin avantürist bəyanatlarında aydın sezə bilirik. Bu günlərdə Ermənistan diplomatiyasına məsul olan şəxs, xarici işlər nazirinin müavini dedi ki, guya danışıqlar masasında Dağlıq Qarabağın müstəqilliyinin tanınması məsələsi də var. Bəllidir ki, bu mövzu heç vaxt müzakirə predmeti olmayıb və ölkəmiz dəfələrlə verdiyi rəsmi bəyanatlarda bunun mümkünsüzlüyünü bəyan edib. Ermənistan anlayır ki, onların pozuculuq etdiyi sülh danışıqlarının nəticə verəcəyi şübhəlidir, hətta inandırıcı deyil. Belə olacağı təqdirdə, təbii ki, Azərbaycanın hərbi yola əl atacağını onlar gözəl bilir. Bu səbəbdən də onlar Azərbaycan Ordusunun şəxsi heyəti arasında yüksək rəhbərliyə inanmsızlıq, etibarsızlıq yaratmaq üçün belə mövzuları gündəmə buraxırlar. İkinci vacib məqam kimi isə Z.Həsənovun son fəallığı götürülə bilər. Təbii ki, onun tez-tez ön cəbhədə görünməsi, verdiyi bəyanatlar erməniləri ciddi narahat edir. Ən başlıcası isə, Z.Həsənovun bu yaxınlarda ABŞ və Pakistana reallaşdırdığı səfərlər və orada silah tədarükü ilə bağlı əldə olunan razılaşmalar ermənilərin kürkünə birə salmış olub. Bu səbəbdən də onların Azərbaycanın ordu rəhbərliyi barədə şayiə yaymaqdan başqa çarələri qalmır.

Hərbi ekspert, istefada olan polkovnik-leytenant Daşdəmir Əliyev də hesab edir ki, ermənilər bu üsuldan ilk dəfə deyil istifadə edirlər: "Müharibənin qanunlarından biri də qarşında olan ölkə ilə bağlı, onun ordusunda nizam-intizamı sarsıda biləcək məlumatları dövriyyəyə buraxmaqdır. Buna panika yaratmaq da deyirlər. Ancaq Azərbaycan Ordusuna xalqın və şəxsi heyətin inamı, güvəni elə böyükdür ki, belə vasitələrlə onu sarsıtmaq mümkün deyil. Ermənilər Azərbaycan Ordusunun nəyə qadir olduğunu aprel döyüşləri və Günnüt əməliyyatında gördülər. Son vaxtlar isə Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər, əldə etdiyi müasir silahlar onları daha dərindən narahat etməyə başlayıb. Xüsusən də sülh danışıqları ilə bağlı konstruktiv mövqedən qaçmaqla bilirlər ki, Azərbaycan Ordusu ilə üzbəüz gələ bilərlər. Bu qorxunun əlamətini şayiələr yaymaqla kompensasiya etməyi düşünürlər. Heç bir əsası olmayan, cəfəng fikirlərlə ordumuzun psixoloji durumuna təsir göstərmək mümkün deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan XİN başçısının Lavrovla məxfi görüşünün pərdəarxası - danışıqlar ərəfəsində müəmmalı hadisə...

**Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyan 22-23 mart tarixlərində Moskvaya gizli səfər edərək rusiyalı həmkarı Sergey Lavrovla məxfi görüş keçirib.**



*"Bütün bunlar onu göstərir ki, münaqişənin tənzimlənməsi ilə bağlı danışıqların getməsində maraqlı olmayan qüvvələr var"*

## *Elçin Mirzəbəyli: "Çox güman ki, Kreml bununla beynəlxalq ictimaiyyətə mesaj verir"*

Bu barədə Ermənistanın "168 saat" qəzeti etibarlı diplomatik mənbələrinə istinadən yazıb.

Məlumatda qeyd olunur ki, Mnatsakanyanın Lavrovla gizli danışıqları martın 29-da Vyanada Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan Prezidenti İlham Əliyev arasında baş tutacaq ilk rəsmi görüşlə əlaqədardır: "Həmin görüşdə nələrin müzakirə ediləcəyi və tərəflərin konkret hansı məsələlər ətrafında danışıqlar aparacağı barədə məlumat verilmir. Amma aydındır ki, ən azı, nazirlər səviyyəsində bu cür görüşə hazırlıq gedir. Bir neçə gün əvvəl Mnatsakanyanla Lavrov arasında telefon söhbəti baş tutdu və onun məzmunu barədə açıqlama verilmədi. İndi isə bəlli olur ki, gizli telefon söhbətindən sonra Mnatsakanyan Moskvaya məxfi səfər də edib və bununla bağlı heç bir informasiya yaymayıblar".

Daha sonra sözügedən mətbuat orqanı əldə etdiyi məlumatın dəqiqliyini yoxlamaq üçün Ermənistan XİN-ə sorğu göndərərək, 22-23 mart tarixlərində Mnatsakanyanın ölkədə olub-olmamasını öyrənmək istəyib. Ermənistan XİN-in sözçüsü Anna Naqdalyan isə sorğuya cavabında deyib ki, 21 martda xarici işlər naziri Z.Mnatsakanyan İrəvan şəhərində olub: "Amma 22 martda paytaxtda olmayıb. XİN bu haqda məlumat yaymayıb, çünki buna ehtiyac görməyib".

Qəzet yazıb ki, XİN-in bu cavabı Ermənistan xarici işlər nazirinin martın 22-də Moskvada Rusiyanın baş diplomatı ilə məxfi danışıqlar apardığını və martın 23-nə keçən gecə İrəvana döndüyünü dolayısı ilə təsdiqləyir.

Mnatsakanyan özü isə yayılan xəbərləri şərh etmək üçün "Sputnik" və "Yerkir.am"a açıqlama verib. Ancaq maraqlıdır ki, o, Moskvada Lavrovla məxfi görüş keçirdiyini nə inkar, nə də təsdiq edib. Bununla belə, bildirib ki, martın 22-də həqiqətən də İrəvanda olmayıb.

O da məlumdur ki, Paşinyan baş nazir olandan sonra ilk dövrlərdə danışıqlardan yayınmaq üçün müxtəlif vasitələrə əl atdı. Ancaq bəlli bir müddətdən sonra bunun yaxşı nəticələnməyəcəyini anlayıb danışıqlara razılaşdı. Çox güman ki, beynəlxalq qurumların da bu yöndə ona təzyiqləri olub. Nəticədə o, razılığa gəlib. Bütün hallarda, indiki situasiyada Mnatsakanyanın Lavrovla məxfi görüş keçirməsində məqsəd nə ola bilər?

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, bunda bir neçə məqsəd ola bilər: "Bu barədə Ermənistanın rəsmi mətbuat orqanları məlumat yaymayıb. Ancaq maraqlıdır ki, sözügedən məlumatı məhz Paşinyana yaxın olan mətbuat orqanları yayıb. Bu baxımdan qəribə situasiya yaranıb. Bu məlumat dezinformasiya xarakteri də daşıya bilər. O mənada ki, ola bilsin bununla ictimai rəyi öyrənməyə çalışırlar. Yəni Paşinyana müxalif olan qüvvələr buna hansı reaksiyanı verəcəklər. Ancaq belə bir məxfi görüşün keçirilməsi də mümkündür. Yəni Ermənistanın istənilən rəsmisinin Rusiyaya çağırılması və təlimatlandırılması mümkündür. Çünki ölkədə hakimiyyət dəyişsə də, Ermənistan forpost ölkədir. Bütün hallarda, Vyana görüşü ərəfəsində belə bir məlumatın mətbuata sızması təsadüfi ola bilməz. Fikrimcə, bu, Rusiyanın prosesdə aktivliyini önə çəkmək baxımından ortaya atıla bilər. Görünür, Rusiya bununla göstərmək istəyir ki, danışıqlar Vyanada keçirilsə də, Ermənistana təsir rıçaqı ona məxsusdur. Çox güman ki, Kreml bununla beynəlxalq ictimaiyyətə mesaj verir. Digər tərəfdən, eyni vaxtda Ermənistanın cəbhə xəttində təxribatları artırması da diqqəti cəlb edir. Bütün bunlar onu göstərir ki, Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıqların getməsində maraqlı olmayan qüvvələr var. Yaxud da o ola bilər ki, Ermənistandakı hazırkı hakimiyyət məqsədyönlü şəkildə bu cür vəziyyət yaradır. İstəyirlər ki, danışıqların mövzusunu yenidən atəşkəs müstəvisinə çəksinlər. Nəzərə almaq lazımdır ki, Ermənistan oxşar texnologiyalardan bundan əvvəl də istifadə edib. Ona görə də bu məsələdə ehtimallar çoxdur. Əsas məqsəd odur ki, danışıqlar prosesi uzansın. Hesab edirəm ki, Ermənistanın bu və digər təxribatları artıq keçərli olmayacaq. Beynəlxalq ictimaiyyət bu məsələyə tutarlı cavab verəcək".

***Vidadi ORDAHALLI***

**Xəbər verildiyi kimi, ABŞ Prezidenti Donald Tramp İsrailin Colan təpələrində hakimiyyətini tanıyıb. Ağ Evin bu addımı İsraildə nə qədər populyar olsa da, dünyanın əksər ölkəsi tərəfindən qınanılır. Çünki ortada BMT-nin İsrail qoşunlarının 1967-ci ildə Suriya torpaqları sayılan Colan təpələrini işğal etməsini qınayan qətnamələri var.**

# Trampın Colan qərarına görə Azərbaycanın ABŞ-dan gözlədiyi izah - "Colan qərarının Qarabağ separatçılarına heç bir bağlılığı olmayacaq"

**Qabil Hüseynli:** *"Tramp kimdir ki, başqa bir dövlətin suveren torpaqlarını alıb öz əlaltısı olan ölkəyə pay etsin?"*



*"Heç bir özünə hörmət edən ölkə həmin ərazini İsrailin torpağı kimi tanımayacaq"*

Politoloqların ümumi rəyinə görə, Ağ Ev son hərəkəti ilə beynəlxalq hüququn normalarını kobud şəkildə pozaraq, başqalarının torpaqlarını işğal edən bütün dövlətlər üçün əlavə presedent və örnək olacaq. Xüsusilə də başqlarının ərazisini işğal edən ermənilər Colan təpələri ilə Dağlıq Qarabağ arasında paralellər aparmağa başlayıblar. Hiss edilir ki, Trampın məlum qərarı onları bir qədər də həvəsləndirib. Onlar vaxtilə eyni paraleli Kosova ilə bağlı aparmağa çalışsalar da, heç bir nəticə əldə edə bilmədilər. Buna baxmayaraq, dünyanın nüfuzlu ölkəsi kimi ABŞ-ın atdığı addımlar sülh danışıqlarının aktiv mərhələsində erməniləri daha da pozucu mövqeyə sürükləmiş olur. Bunun üçün ABŞ Dövlət Departamentinin xüsusi bir bəyanatla çıxış edərək, Colan məsələsinin Dağlıq Qarabağa heç bir aidiyyətinin olmadığına aydınlıq gətirməsinə ehtiyac varmı?

Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, ABŞ Trampın simasında böyük bir yanlışlığa imza atıb: "Mən məsələyə bir qədər fərqli baxıram. Trampın bu qərarı özünə dəstək qazanmayacaq. Əksinə, lənətlənəcək. Yaxın vaxtlarda görəcəksiniz ki, ona böyük etirazlar olacaq. Ona görə də ermənilərin özləri belə paralelin aparılmasında peşman olacaqlar. Yəni demək istədiyim budur ki, özünə dəstək yox, lənət qazanacaq bu qərarla bağlı heç əlavə aydınlığa ehtiyac da duyulmur. Tramp kimdir ki, başqa bir dövlətin suveren torpaqlarını alıb öz əlaltısı olan ölkəyə pay etsin? Bu, beynəlxalq hüquq normalarının ayaqlar altına atılıb tapdanmasıdır. Həmin ərazi işğal edilmiş sayılır. Orada druzlar, ərəblər və türkmənlər yaşayırlar. Dünyanın BMT tərəfindən qəbul edilmiş xəritəsi var. Həmin xəritədə Colan təpələrinin Suriyaya aid olduğu kimdəsə şübhə doğurmur. Heç bir özünə hörmət edən ölkə həmin ərazini İsrailin torpağı kimi tanımayacaq. Tramp bundan əvvəl Qüdslə bağlı da bir qərar verdi və özünə tərəfdar qazana bilmədi. Baxmayaraq ki, Qüds İsrailin ərazisində olan mübahisəli vahiddir. Qüdsü heç BMT-yə daxil olan ölkələrin 3-4 faizi belə tanımadı. Tramp bu qərara verilən reaksiyadan sonra anlayacaq ki, dünya nizamını cunqliya qanunlarına istinadla pozmaq olmaz. Hesab edirəm ki, yaxın zamanlarda bu məsələ BMT səviyyəsində lənətlənəcək. Ona görə də ermənilərin belə zərərli məsələlərdən həvəslənməsi onların özlərinə zərər gətirəcək".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, erməni KİV-i bütün İslam dünyası və xüsusilə şiələr üçün böyük təhqir sayılan yazı dərc edib. Yazıda erməni yazarlar guya qazax xalqında "Dariqa qız" adlı qəhrəmanlıq dastanının olduğu barədə məlumat verir, ancaq şiəlik motivlərinə əsaslandığı üçün, guya dastanın sovet dövründə rəsmi milli epos statusu ala bilmədiyini yazırlar.**

# Ermənistanın böyük şiə imamını təhqir etməsinə İran necə dözdü...

**Seyid Camal Əzimbəyli:** *"Bu, ümumilikdə, Əhli Beytə yönəlik bir təhqirdir və İranın buna reaksiya verməməsi çox acınacaqlı haldır"*



*"Hansısa siyasi maraqlara görə..."*

Ermənilər yazırlar ki, şiələrin 4-cü (?) imamı Əli guya Dariqaya, sonra isə onun oğlu olduğunu ehtimal belə etməyən Mehdiyə məğlub olur. Lakin, qeyri-iradi, atasını məğlub etdiyini anlayan Mehdi utancından dağlara çəkilir və yer altında gizlənir.

Məqalənin əsas süjet xəttinə toxunmuruq. Yüz milyonlarla müsəlmanın həssas dini inancına böhtan atan və onu təhqir edən bu parçanı xatırlatmaq kifayətdir. Əvvəla Əli islam tarixində 4-cü yox, birinci imamdır. İkincisi, tarixdə imam Əlinin qazax xalqının hər hansı etnos qəhrəmanı ilə hansısa bağlılığının olduğuna dair fakt yoxdur. Üçüncüsü, 12-ci imam Mehdinin kimdənsə inciyib qeybə çəkildiyinə dair ortada ciddi tarixi və dini fakt mövcud deyil. Göstərilən faktlar qazax xalqında "Dariqa qız" adlı eposun ümumiyyətlə olmadığını, olubsa da, orada şiəliklə bağlı belə bir epizodun göstərilmədiyini qətiyyətlə söyləməyə əsas verir. Dördüncüsü, dini məzhəbi etibarilə islamın sünni qoluna aid qazax xalqının şiə müqəddəsləri ilə bu formada əlaqələndirilməsi aşkar qərəz və saxtakarlıqdır. Məqalənin maraqlı tərəfi odur ki, ermənilər islama, xüsusilə də şiə müsəlmanlara qarşı belə mənəvi terror xarakterli uydurmaya əl atanda şiə İranı da nəzərə almayıblar. İranın imkanlarından istifadə edərək regional təcriddən çıxmaq istəyən ermənilər şiə müqəddəslərini dövlət səviyyəsində dəyərə çevirən 80 milyonluq İrana belə "minnətdarlıq" edirlər.

Ən maraqlısı isə odur ki, İran hələ də sözügedən məsələyə öz etirazını bildirməyib. Adətən İran dövləti şiə müqəddəsləri ilə bağlı məsələlərdə son dərəcə həssas davranır. Bu və buna bənzər hadisələr baş verəndə dərhal buna müxtəlif formalarda öz etirazlarını bildirirlər. Çox qəribədir ki, Ermənistan KİV-ində şiələrlə bağlı dərc olunan təhqiramiz yazıya İran reaksiya vermir. Eyni zamanda, buna cəhd belə göstərmir.

Maraqlıdır, İran Ermənistan mətbuatında dərc olunan sözügedən təhqiramiz yazı ilə bağlı niyə öz etirazını bildirmir?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, İranın bunu görməzdən gəlməsi hiddətləndiricidir: "Bu, ümumilikdə, Əhli Beytə yönəlik bir təhqirdir və İranın buna reaksiya verməməsi çox acınacaqlı haldır. İranın dövlət ideologiyasında şiəlik əsas rola malikdir. Çox qəribədir ki, İranın Ali Dini Şurası bu məsələyə öz münasibətini bildirməyib. Halbuki, onlar sözügedən məsələdə dərhal ortaya mövqe qoymalıydılar. Mən də bir Əhli Beyt mənsubu olaraq bundan çox üzülürəm. İran bəzən Azərbaycanın hansısa dövlətlə olan yaxın münasibətlərinə belə, qısqanclıqla yanaşır və bununla bağlı mövqe sərgiləyir. Ancaq, nədənsə, İran İslam Respublikası Ermənistan mətbuatındakı bu rəzilliyə adekvat reaksiya vermir. Buna görə öz mövqeyini ortaya qoymur. İranın bu susqunluğu utancvericidir və milyonlarla Əhli Beyt sevənləri qane etməyəcək. Burada söhbət İran-Ermənistan münasibətlərinin qorunmasından gedirsə, bunun özü də gülünc təsir bağışlayır. Ona görə ki, İran dövləti dəfələrlə Ermənistandan güclüdür. Ermənistanın İran üçün hansı xüsusi strateji mövqeyi var ki, Tehran bunu görməzdən gəlir? Baxanda buna görə İran nəsə itirməyəcək. O üzdən, gərək Ermənistan bundan daha çox narahat olsun. Ancaq İranda istər dövlət, istərsə də ictimaiyyət səviyyəsində bu məsələyə reaksiyanın verilməməsi çox üzücüdür. Ona görə də bu məsələdən hiddətlənirəm. Çünki sevgili peyğəmbərimizin təəssübkeşi olduğunu dayanmadan, durmadan bəyan edən mövcud İran hakimiyyətinin bu məsələdə Ermənistana hər hansı reaksiya verməməsi islamın və dinin prinsipləri ilə bir araya sığmır. Hansısa siyasi maraqlara görə İranın buna göz yumması bu ölkəyə hörmət gətirməyəcək".

***Vidadi ORDAHALLI***

# İstanbulda məşhur Aya Sofyanın məscidə çevrilməsinin zamanı yetişib...

**Məlum olduğu kimi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dünya mədəniyyətinin şah əsərlərindən biri olan Aya Sofya Muzeyini məscidə çevirmək təşəbbüsünü irəli sürüb. VI əsrdə inşa edilən Aya Sofya 1985-ci ildən UNESCO-nun ümumdünya irs siyahısına daxil edilib.**

***Zaur Əliyev:*** *"Tarixi abidələrin dini məqsədlər üçün istifadəsini məqbul saymıram"*

***Faiq Ələkbərli:*** *"Aya Sofyanın məscidə çevrilməsini məqbul hesab edirəm"*

Ərdoğanın bu təşəbbüsü UNESCO-nun əlaqədar komitəsi tərəfindən müzakirə ediləcək. Məlumatlara görə, təşkilat Ümumdünya irs komitəsinin növbəti iclasına hazırlıq işi aparacaq.

Aya Sofyanı muzeydən məscidə çevirmək təşəbbüsünü irəli sürən Ərdoğanın fikrincə, bununla tarixi abidənin turistlər tərəfindən pulsuz ziyarəti üçün şərait yaranacaq.

Türkiyənin İstanbul şəhərində yerləşən Aya Sofya əvvəl pravoslav kilsəsi, daha sonra məscid, hazırda isə muzey olaraq fəaliyyət göstərir. Bizans dövrünə aid olan Aya Sofya Bizansın "qızıl əsrinin" simvolu hesab edilir.

Tarixçilərin bildirdiyinə görə, 1935-ci ildən indiyə qədər muzey kimi fəaliyyət göstərən Aya Sofya Osmanlı dövrünün möhtəşəm və tarixi abidələrindən biri olaraq, il boyunca bütün ölkələrdən gələn turistlər tərəfindən ziyarət edilir.

Tarixçilər qeyd edirlər ki, tikintisinə 532-ci ildə başlanan Aya Sofya dünyanın ən maraqlı tikililərindən biri kimi diqqəti cəlb edir.

Tarixçilər bildirirlər ki, Konstantinopol fəth edildikdən sonra II Mehmedin müdaxiləsi nəticəsində Aya Sofyaya zərər vurulmadı. Daha sonra Aya Sofyanın məscidə çevrilməsi məsələsində mozaikaların sökülməsi lazım oldu. Buna baxmayaraq, II Mehmedin əmri ilə mozaikalar sökülmədi və kirəclə örtüldü. 1847-1849-cu illərdə təmir zamanı mozaikaların qorunduğu məlum oldu. Zəng qüllələri dağıdılmadı və müvəqqəti olaraq taxta minarələr tikildi. Hazırkı minarələr II Səlimin vaxtında tikilib.

Ərdoğanın bu təşəbbüsünə tarixçilər birmənalı yanaşmırlar. Onların bir qismi hesab edir ki, Aya Sofyanın məscidə çevrilməsi düzgün deyil, bəzilərinin fikrincə isə Ərdoğanın təşəbbüsü alqışlanmalıdır. Bu fikri dəstəkləyən alimlər bildirirlər ki, Konstantinopol fəth edildikdən sonra Aya Sofya məscidə çevrilib və burada ilk namazı Fateh Sultan Mehmed qılıb.

Hətta bildirilənə görə, Aya Sofya məscid kimi öz funksiyasını 1913-cü ilə qədər davam etdirib.

Siyasi elmlər üzrə fəlsəfə doktoru, tarixçi-alim Zaur Əliyevin fikrincə, Aya Sofyanı məscidə çevirmək təşəbbüsü düzgün deyil. "Türkiyənin mədəniyyət xəzinələrindən biri kimi tarixə düşən Aya Sofya İstanbulun siluetinə öz möhürünü vuran əsərlərdəndir. Müqəddəs Aya Sofya muzeyi dünyanın ən mühüm mədəniyyət abidələrindən biri hesab olunur. Məbədlərin anası kimi tanınan bu möhtəşəm abidəni Böyük Konstantin tikdirib. Fateh Sultan Mehmed İstanbulu fəth etdikdən sonra Aya Sofya məscidə çevrilir. Məsciddə ilk namazı Fateh Sultan Mehmedin özü qılır. Cümhuriyyət dövrunədək məscid olaraq istifadə edilən Aya Sofya 19-cu əsrdə Sultan Əbdulməcidin əmri ilə Fossatti qardaşları tərəfindən bərpa etdirilir. Aya Sofya Atatürkün qərarı ilə 1934-cü ildən etibarən Bizans muzeyi olaraq fəaliyyət göstərməyə başlayır. Məncə, Atatürkün o zaman verdiyi qərarı qorumaq lazımdır. Ərdoğan Fateh Sultan Mehmed kimi tarixə adını salmağa cəhd etsə də, məbədin tarixi Bizansla və xristianlıqla bağlıdır. Multikultural dünyada Ərdoğanın bu addımını düz hesab etmirəm. Tarixi abidələrin dini məqsədlər üçün istifadəsini məqbul saymıram" - deyə Z.Əliyev qeyd etdi.



Tarix üzrə fəlsəfə doktoru, tanınmış tədqiqatçı Faiq Ələkbərli isə hesab edir ki, Ərdoğanın təşəbbüsü doğrudur. F.Ələkbərlinin sözlərinə görə, Aya Sofyanın muzeydən məscidə çevrilməsi reallaşarsa, bu müsbət hal olar. "Ərdoğanın təşəbbüsü müsbətdir. Onun bu təşəbbüsü irəli sürməsinin, əslində, səbəbi var. Bilirsiniz ki, qeyri-islam dünyası, eləcə də ABŞ özbaşına qərarlar çıxarırlar. Xüsusələ də ABŞ Prezidenti Trampın Suriya torpaqlarını İsrail ərazisi kimi tanıması, bunu rəsmən qəbul etməsi onu göstərir ki, bu tamamilə haqsızlıqdır. ABŞ-ın və İsrailin BMT-nin qərarlarına əhəmiyyət vermədiyi bir şəraitdə Türkiyənin də öz torpağında yerləşən Aya Sofyanı məscidə çevirmək istəyi tam normaldır. Aya Sofya Türkiyəyə aiddir və onunla bağlı qərarı bu ölkə verməldir. Türkiyə öz əmlakı ilə bağlı qərarlar qəbul etməkdə haqlıdır, bu onun öz daxili işidir. Ancaq burada bir həssas məsələ var, bu da islam və qeyri-islam dünyasındakı problemlərlə bağlıdır. Ərdoğanın Aya Sofyanı məscidə çevirməklə bağlı irəli sürdüyü təşəbbüsdə qeyri-adi heç nə yoxdur. Tarixdə məscidin kilsəyə, kilsənin isə məscidə çevrilməsi hadisələri yetərincə olub. Xristian dövlətləri işğal etdikləri ərazilərdə məscidi kilsəyə çevirib, islam dövlətləri isə işğal etdikləri xristian ərazilərindəki kilsələri məscidə çeviriblər.

Aya Sofyanın da məscidə çevrilməsini məqbul hesab edirəm və bu baş verərsə, bunu normal qarşılayıram" - deyə bildirən F.Ələkbərli hesab edir ki, bu hadisə baş verərsə, xristian dünyasında müəyyən narazılıqlarla qarşılanacaq. Bununla belə, o qeyd etdi ki, bu, Ərdoğanın özbaşına qərarlar qəbul edən bəzi dövlətlərin etdiklərinə cavabı kimi qəbul olunmalıdır.

***İradə SARIYEVA***

# Böyük Ərəb dünyası Trampın Colan qərarı qarşısında "cınqırını" da çıxarmadı...

**ABŞ Prezidenti Donald Trampın Suriya ərazisi olan Colan təpələrini işğalçı İsrail torpaqları kimi tanımaqla bağlı imzaladığı sənədə etiraz edən dövlətlərin sayı artır. Dünyanın nəhəng ölkələri sayılan Çin və Rusiya Trampın bu qərarını kəskin tənqid ediblər.**




*"Ancaq dünyanın reaksiyasını görəndən sonra ürəklənəcəklər"*

***Tahir Abbaslı:*** *"Bu, həmin ölkələrdəki rejimlərin ABŞ və İsraildən ehtiyat etməsinə görə baş verir"*

Ancaq maraqlıdır ki, ərəb coğrafiyasında baş verən bu hadisəyə ən susqun mövqeyi məhz ərəb ölkələri nümayiş etdirirlər. Vəziyyət o həddə çatıb ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu onların bu susqunluğuna etiraz edib. O xatırladıb ki, Suriya da Ərəb Dövlətləri Liqasının üzvüdür: "Bölgədəki ərəb ölkələrindən Donald Trampın qərarına reaksiya verən oldumu? İlk etirazı Türkiyə bildirdi. Avropa İttifaqı belə qərara etiraz etdiyi halda, ərəb dövlətləri İsrail məsələsində qorxularından səslərini çıxara bilmirlər. Tarixinə sahib çıxa bilməyənlər müqəddəs savaşlarına necə sahib çıxacaqlar?! Mən nə İordaniyanı, nə də Qətəri nəzərdə tuturam. Mən Qüdsün işğalı qarşısında ABŞ-a etiraz edə bilməyən, Qüdsün himayəçisi olan İordaniya və Fələstinə də "siz də səsinizi çıxarmayın, biz ABŞ və İsrailə müqavimət göstərə bilmirik" - deyən ərəb ölkələrini nəzərdə tuturam. Bunu demək mənim haqqımdır".

Doğrudan da ərəb ölkələrini öz ətrafında birləşdirən bir format kimi Ərəb Dövlətləri Liqasının bu məsələdəki susqunluğu nə ilə izah edilə bilər?

İslam Demokrat Partiyasının sədri Tahir Abbaslı qəzetimizə bildirdi ki, bunun bir sıra səbəbləri var: "Başlıcası ondan ibarətdir ki, ərəb ölkələri bir-birindən daha çox İsrail və ABŞ-la yaxın əlaqədədirlər. Hətta əksəriyyəti onlara xidmət edir. Bütün təbii ehtiyatlarını belə o tip ölkələrə sümürür. Məhz bunun nəticəsidir ki, onlar öz yaxınlıqlarında baş verən hadisəyə belə susqunluqla reaksiya verirlər. Həmin ölkələrin əksəriyyətində islam dini hakim mövqeyə sahibdir. Ancaq təəssüflər olsun ki, islama uyğun şəkildə hərəkət etmirlər. Çünki islam zalımın yanında olmağı yox, məzlumun haqqını qorumağı tələb edir. Bir ərəb ölkəsinin ərazisi işğal edilirsə, ona necə seyrçi qalmaq olar? Bu, həmin ölkələrdəki rejimlərin ABŞ və İsraildən ehtiyat etməsinə görə baş verir. Ancaq dünyanın reaksiyasını görəndən sonra ürəklənəcəklər.

Güman edirəm ki, Ərəb Dövlətləri Liqası hamıdan gec olsa da, BMT-yə müraciət etmək məcburiyyətində qalacaq. Onların bundan başqa yolları qalmayıb".

***Məhəmmədəli QƏRİBLİ***

# Erməni mediasının İlham Əliyevə növbəti böhtanı - "Azərbaycan Prezidenti Rusiyaya qalın bir qovluq verib"

**Erməni KİV-lərinin növbəti böhtan məlumatı Prezident İlham Əliyevlə bağlıdır. Həmin ölkədə nəşr edilən "Qraparak" adlı qəzet guya Moskvadakı mənbələrinə istinadən yazıb ki, Azərbaycanın dövlət başçısı Kremlə Ermənistanla bağlı qalın qovluq verib.**



*"Bu, eyni zamanda, Ermənistan hakimiyyəti daxilindəki qüvvələrin savaşından doğa bilər"*

## *Elşən Həsənov: "Bu tip materialın yayılmasını qəzetin sensasiya axtarmaq cəhdi kimi də dəyərləndirmək olar"*

Qəzet iddiasında bildirilir ki, söhbət Ermənistan Təhlükəsizlik Şurasının katibi olmuş, hazırda isə həmin quruma rəhbərlik edən Armen Qriqoryanın keçirdiyi anti-Rusiya və anti-Putin mahiyyətli tədbirlərdən gedir. Qəzet uydurduğu məlumatı belə əsaslandırır ki, guya Azərbaycan rəhbərliyi bununla Ermənistanı Rusiyanın gözündən salmağa çalışır və sübut etmək istəyir ki, Qriqoryan kimi anti-Rusiya mövqeli şəxs yüksək post tutmaqda davam edirsə, deməli, bütün Ermənistan rəhbərliyi Rusiyanı sevmir. Əslində, bu məlumatın dilətantlar tərəfindən dövriyyəyə buraxıldığı aydın şəkildə özünü büruzə verir. Çünki bəllidir ki, Rusiya kimi nəhəng bir ölkə Ermənistanda baş verən prosesləri izləməyə, ondan nəticə çıxarmağa tam qadirdir. Rusiyanın Ermənistanda böyük hərbi bazası mövcuddur. Bu da elə siyasi mövcudluq, lazım olan informasiyanı asan əldə etməyin mümkünlüyü anlamına gəlir. Erməni KİV-lərinin belə yalan məlumatı dövriyyəyə buraxmaqda hansı məqsədləri ola bilər?

Təhlükəsizlik məsələləri üzrə ekspert Elşən Həsənov qəzetimizə bildirdi ki, bu məlumat heç bir reallığı əks etdirə bilməz: "Bilirsiniz ki, Rusiya nəhəng ölkədir və güclü xüsusi xidmət orqanlarına malikdir. Bütün dünyadan məlumatı Rusiya kəşfiyyatı toplaya bildiyi halda, necə olur ki, ağzının içində olan Ermənistanda baş verən prosesləri görə bilməsin? Özü də söhbət sadə bir vətəndaşın da izləyib, nəticə çıxara biləcəyi mövzudan gedirsə. Ermənistanda hakimiyyətə gələn qüvvələrin anti-Rusiya ovqatında olduqlarını bütün dünya bilir. Bunu gizlətmək mümkün deyil. Bundan əlavə, Azərbaycan Ermənistanla müharibə şəraitində yaşadığı üçün, bizim rəhbərlikdə onlarla bağlı mühüm məlumatlar ola bilər. Ancaq bu o demək deyil ki, Azərbaycan həmin məlumatları kiməsə təqdim etməlidir. Bu tip materialın yayılmasını qəzetin sensasiya axtarmaq cəhdi kimi də dəyərləndirmək olar. Bu, eyni zamanda, Ermənistan hakimiyyəti daxilindəki qüvvələrin savaşından doğa bilər. Belə kompromat tipli məlumatlarla adı hallanan vəzifə sahibini gündəmə gətirirlər. Biz sözlə, ciddiyə alınası xəbər deyil.

Hətta buna bənzər hadisə olsa belə, onu Rusiyanın əlaqədar qurumları Ermənistanın hansısa tanınmayan qəzetinə sızdırmaqda maraqlı olmazlar. Hər halda, bu tip informasiyaların dünyanın nüfuzlu dərgilərində işıqlandırılmasını istəyərlər".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın geosiyasi kombinasiyalarının daha bir nəticəsi - Trampın diqqəti Türkmənistana yönəldi...

**Enerji resurslarına getdikcə daha böyük tələb duyan Qərb ölkələri hazırda bu sahədə Azərbaycanla əməkdaşlığı intensiv şəkildə genişləndirməkdədir. Elə bundan irəli gəlir ki, artıq indidən "Cənub Qaz Dəhlizi" vasitəsilə Azərbaycanın Avropaya daha çox həcmdə və Avropanın daha çox ölkəsinə təbii qaz satışının mümkünlüyü intensiv müzakirə olunur.**




Digər tərəfdən, Azərbaycan üzərindən Qərbin daha çox qaz almaq niyyəti də özünü qabarıq şəkildə büruzə verir.

Qeyd olunan məsələ ABŞ prezidenti Donald Tramp tərəfindən yenidən gündəmə gətrilib. Belə ki, Tramp Türkmənistan qazının Xəzər dənizi üzərindən Avropaya nəqlinin həyata keçiriləcəyinə ümid etdiyini açıqlayıb. ABŞ dövlət başçısının Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədova ünvanladığı məktubda bu məsələ xüsusi vurğulanıb. Tramp bildirib ki, ABŞ hökuməti və biznes dairələri Türkmənistanla iqtisadi əməkdaşlığı möhkəmləndirmək üçün yeni istiqamətlər axtarır: "Ümid edirəm ki, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsi ilə əlaqədar Türkmənistan qazın Qərbə nəqli üçün yaranmış yeni imkandan istifadə edə biləcək".

Xatırladaq ki, söhbət burada "Transxəzər" kəmərindən gedir. ABŞ-la yanaşı, məsələyə Avropa İttifaqı da xüsusi maraq göstərir. Burada hesab edilir ki, Xəzər dənizinin hüquqi statusuna dair məlum konvensiyanın qəbul edilməsi sayəsində Xəzər dənizi vasitəsilə qaz kəmərinin çəkilməsinin artıq zəruri hüquqi bazası yaradılıb. İndi bu qaz kəmərinin çəkilməsi üçün yalnız layihənin iştirakçı tərəflərinin razılığı və yüksək beynəlxalq standartlara cavab verən ekoloji ekspertiza tələb olunur. Qeyd edək ki, "Transxəzər" qaz kəməri layihəsi ildə 30 milyard kubmetr həcmində Türkmənistan təbii qazının ən azı 30 il müddətinə Xəzər dənizinin Türkmənistan sahillərindən ötürülməklə və Azərbaycandan keçməklə Avropa bazarlarına tədarükünü nəzərdə tutur. Qərb ölkələri ilə yanaşı, indi Türkmənistan özü də Avropa bazarına təbii qaz satışı imkanlarını nəzərdən keçirir. Məhz bununla bağlı olaraq "Transxəzər" kəmərinin tikintisi və türkmən qazının "Cənub Qaz Dəhlizi" üzrə Avropa ölkələrinə çatdırılması barədə Avropa Komissiyası, Azərbaycan, Türkiyə və Gürcüstanla fəal danışıqlar aparılır. Bu günlərdə Türkmənistan nümayəndə heyəti Avropa Komissiyasının təmsilçiləri ilə bu qaz kəmərinin tikintisi məsələlərini yenidən müzakirə edib. Türkmənistan prezidentinin neft və qaz məsələləri üzrə müşaviri Yaxşıgəldi Kakayev də bildirir ki, Türkmənistan Avropa bazarlarına qaz tədarükü imkanlarını nəzərdən keçirir və bu məsələyə dair Avropa Komissiyası ilə intensiv danışıqlar aparır: "Biz Avropa istiqamətində ixrac marşrutlarını nəzərdən keçiririk, bu məsələ ilə bağlı Avropa Komissiyası və tranzit ölkələrlə fəal danışıqlar aparırıq".

İndilikdə əsas diqqət buna cəmləşib ki, Türkmənistanın "Cənub Qaz Dəhlizi"nə qoşulması üçün Xəzərin Türkmənistan və Azərbaycan sahillərini birləşdirən "Transxəzər" kəmərinin tikintisi zəruridir. "Xəzər beşliyi"nin dövlət başçılarının dənizin hüquqi statusu haqqında konvensiyanı imzalamasından sonra bu məsələnin reallaşması tam mümkün sayılır. Türkmənistan bəyan edir ki, bu konvensiya Xəzərin dibi ilə Azərbaycana qədər "Transxəzər" qaz boru xəttinin çəkilməsinə imkan verəcək və xətt TANAP-a qoşulacaq.

Bu layihənin reallaşdırılmasının texniki-hüquqi aspektlərinə dair ilk müzakirələr üçtərəfli formatda Türkmənistan, Azərbaycan və Avropa İttifaqı arasında 2011-ci ildə başlanıb. Sonradan danışıqlar beştərəfli formatda - Gürcüstan və Türkiyə də daxil olmaqla, 2015-ci ildən nazir müavinləri səviyyəsində davam etdirilib. "Türkmengaz" dövlət konsorsiumunun sədri Mırat Arçayev də vurğulayır ki, artıq ölkəsinin "Cənub Qaz Dəhlizi" layihəsində iştirak imkanı mühüm əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, Türkmənistan qazını TANAP və TAP layihələri vasitəsilə Avropa bazarlarına çatdırmağa imkan verəcək "Transxəzər" kəməri layihəsi gündəmdən çıxarılmayıb. Türkmənistan və Azərbaycanın Xəzər dənizi sahilləri arasında qaz kəməri layihəsi həm də Türkmənistanın "Cənub Qaz Dəhlizi"nə qoşulması üçün zəruridir. Hesab edilir ki, Türkmənistanı bu layihəyə cəlb etmək mümkün olacaqsa, Azərbaycan bu Asiya ölkəsi üçün əsas qaz tranzitçisinə çevriləcək. Elə hadisələr də məhz bu istiqamətdə inkişaf edir. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan üzərindən Avropaya daha çox qaz axını gözlənir. Yuxarıda qeyd olunduğu kimi, prosesdə Qərb ölkələri, o cümlədən də ABŞ maraqlı tərəf kimi çıxış edir. Hər halda görünən budur ki, göstərilən maraq və edilən təşəbbüslər nəticəsində yaxın tezlikdə "Transxəzər" kəmərinin çəkilməsinə start verilməsini gözləmək olar. Belə vəziyyətdə isə bu, ölkəmiz üçün yeni tranzit gəlirlərin əldə olunması deməkdir.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Prezidenti Vyana görüşünə daha güclü mövqe sahibi kimi qatılır

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində proseslərin hansı istiqamətdə cərəyan edəcəyi Prezident İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla martın 29-da Vyanada baş tutacaq görüşündən sonra daha dəqiq şəkildə bəlli olacaq. Qeyd edək ki, bu, Azərbaycan və Ermənistan rəhbərləri arasında Minsk Qrupu həmsədrlərinin də iştirakı ilə baş tutacaq ilk rəsmi danışıqlar olacaq.**

Rəsmi Bakı artıq bu formatda danışıqlarda konkret nəticəyə hesablanmış addımların atılmasını istəyir. Xatırladaq ki, görüşdən əvvəl Novruz bayramı münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikdə Prezident İlham Əliyev növbəti dəfə bu xüsusda ölkəmizin konkret mövqeyini diqqətə çatdırıb: "Münaqişənin həllinə gəldikdə, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim tarixi diyarımızdır və münaqişənin tezliklə həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında olmalıdır". Digər tərəfdən, tərəflərin ilk rəsmi görüşü ərəfəsində Minsk Qrupu həmsədrlərinin son bəyanatı da onu deməyə əsas verir ki, prosesdə Bakının mövqeyi vasitəçilər tərəfindən də tam dəstəklənir. Xüsusən də mövcud danışıqlar formatının saxlanması baxımından. Hesab olunur ki, bu, Ermənistana birmənalı şəkildə verilmiş ciddi siqnaldır, eyni zamanda onu göstərir ki, Azərbaycanın mövqeyi daha da böyük dəstək qazanır.

Əslində, Azərbaycanın mövqeyinə verilən dəstək Ermənistanda da tam etiraf olunur. Ermənistanın baş naziri Nikol Paşinyanın son açıqlamaları da bunu aydın surətdə təsdiq edir. Bu xüsusda o bildirir: "Dağlıq Qarabağın statusu ilə bağlı müxtəlif yanaşmalar var və Azərbaycan prezidenti İlham Əliyevlə, həmsədrlərlə, eləcə də digər beynəlxalq tərəfdaşlarımızla apardığım müzakirələrdə bu məsələyə aydınlıq gətirilməsinə ehtiyac yarandı. Biz nizamlanmaya dair öz şərhimizi təqdim edə bilərik, amma məsələ bəyanatların mübadiləsində deyil. Bu məsələ ilə bağlı ən fərqli şərhlər var və onların bəziləri ictimailəşdirilib, bəziləri isə ictimaiyyətə qapalıdır. Adlarını çəkə bilmədiyim bəzi beynəlxalq tərəfdaşlarımız hesab edirlər ki, Dağlıq Qarabağ Ermənistan Respublikasının tərkibində ola bilməz. Kimin haqlı, kiminsə haqsız olduğunu anlamaq istəyirəm". Qondarma qurumun danışıqlar prosesində tərəf kimi iştirakının vacib olduğuna dair əvvəlki destrukriv mövqeyinə də toxunan Paşinyan vurğulayıb ki, rəsmi İrəvan tərəfdaşları ilə "fakta əsaslanan" müzakirələri davam etdirəcək və hətta nizamlamaya dair mövqeyini dəyişə bilər.

Bütün bunlar fonunda hesab edilir ki, əslində, Vyana görüşündə Paşinyan məsələyə destrukriv yanaşmasını dəyişməli olacaq. Çünki bu xüsusda ona, Azərbaycanla yanaşı, beynəlxalq ictimaiyyətin də sərt təzyiqləri var. Bu da öz növbəsində onu göstərir ki, Vyana görüşündə Paşinyanın mövqe dəyişikliyinə getməsi qaçılmaz olacaq. Əks təqdirdə Ermənistanı kifayət qədər ciddi problem və çətinliklər gözləyir. Bunu erməni politoloq Narek Samsonyan da etiraf edir və bildirir ki, Azərbaycan Qarabağ məsələsində istədiyi hədəfə sürətlə yaxınlaşır: "Paşinyanın Qarabağ danışıqlarında format konsepsiyası iflasa uğradı. Əksinə, görünən budur ki, konfliktin həlli istiqamətində "Madrid prinsipləri" yenidən gündəmə gətirilir. Yaxşı, hesab edək ki, "Madrid prinsipləri"ndə mövcud olan bütün maddələrlə razılaşırıq və azərbaycanlı qaçqınlar öz köhnə yaşayış yerlərinə qayıdırlar. Referendum zamanı nə edəcəyik? Bu hələlik ən vacib sualdır. Belə ki, məsələn, Şuşa, Laçın rayonlarında əhalinin 95%-ni azərbaycanlılar təşkil edib, xüsusilə də Şuşa ən çox əhali sayı olan rayonlardan biridir.

Digər vacib bir məsələ isə, Kəlbəcəri, yaxud Ağdamı qaytarırıqsa, necə bir vəziyyətin yaranacağıdır. Bunlar həyata keçdiyi halda, çətin ki, Qarabağ bundan sonra erməni ərazisi olaraq qalsın. Bu faktların birləşməsi məntiqi baxımdan onu göstərir ki, hətta Ermənistandakı indiki "boşboğaz" hakimiyyət olmasa, yenə də Qarabağ məsələsinin indiki mərhələdə danışıqlar yolu ilə həlli olmayacaqdı. Güc strukturları isə hər gün, hər an, hər dəqiqə hazır olmalıdırlar. Həm də bütün bunların dərk edilməsi məni min dəfə əmin olmağa məcbur edir ki, Nikol Paşinyan hökuməti Ermənistanın baş ağrısı olaraq öz ordusundan qaçan üzvləri qədər təcrübəsidir. Bunlar isə mütləq Vyana görüşündən sonra öz nəticələrini göstərəcək".

Qeyd edək ki, daha öncə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru David Şahnazaryan "Sputnik Armenia" radiosunun efirində çıxış edərkən Vyana görüşünün İrəvan üçün çox ağır keçəcəyini bildirib. Onun sözlərinə görə, Ermənistanda hakimiyyət dəyişəndən sonra danışıqlar prosesi ciddi narahatlıqlar doğurmağa başladı: "Ermənistan rəhbərliyi, indiki halda baş nazir və xarici işlər naziri danışıqlarda Azərbaycana uduzur. Ermənistan artıq böyük güzəştlərə gedib, Azərbaycan diplomatiyası isə son 11 ay ərzində ciddi uğurlar əldə edib - 1996-cı il ATƏT-in Lissabon sammitindən bu yana ilk dəfə". Ermənistan xüsusi xidmət orqanlarının eks-rəhbəri hesab edir ki, Azərbaycan təmas xəttində insidentlərin araşdırılması mexanizmi barədə neçə ildir həmsədrlərin gündəmə gətirdiyi məsələni də gündəmdən çıxara bilib. Onun sözlərinə görə, 2016-cı ildə Sankt-Peterburqda və Vyanada belə mexanizmin yaradılmasına dair razılaşma əldə edilmişdi. Şahnazaryanın fikrincə, Azərbaycan buna Ermənistanın "səyləri" sayəsində nail olub. O qeyd edib ki, baş nazir və XİN rəhbəri daim ziddiyətli bəyanatlarla çıxış edir. Ona görə də belə vəziyyət yaranıb ki, Ermənistan hökumətinin rəhbəri Azərbaycan prezidenti ilə danışıqlarda uduzmuş mövqedən çıxış edir: "Konsepsiya yoxdur. Keçmiş hakimiyyət "ərazilər əvəzinə status" formulu barədə dəqiq mövqe bildirirdi". Şahnazaryana görə, bütün danışıqlar prosesi boyu həmsədrlər və Ermənistan bir tərəfdə, Azərbaycan o biri tərəfdə idi. Azərbaycanın mövqeyindən Türkiyə çıxış edib həmişə formatın dəyişdirilməsi məsələsini qaldırırdı. İndi isə əksinədir: "Mən başa düşmürəm, Paşinyan dövlətin və hökumətin rəhbəri olaraq konkret gündəmi olmadan danışıqlara necə gedir?" Xatırladaq ki, 2018-ci ildə keçirilmiş növbədənkənar parlament seçkiləri zamanı Şahnazaryan Paşinyanı "torpaqları qaytarmaq üçün gizli plan qurmaqda" ittiham edirdi. Həmin ittihamlarına görə hətta onu Milli Təhlükəsizlik Xidmətinə ifadə verməyə çağırdılar. İndi də Şahnazaryan bildirir ki, Bakı diplomatik sahədə mühüm üstünlüklər əldə edir və Vyana görüşü də bu sıradan olacaq.

Elə sabiq dövlət müşaviri Qabil Hüseynli də eyni fikirdədir. Politoloq bildirib ki, görüşün təşkil edilməsində Avropa İtifaqı, Avropa Şurası və ATƏT-in Minsk Qrupunun səylərini qiymətləndirmək lazımdır: "Çünki Paşinyanın danışıqların formatını dəyişdirməklə bağlı sayıqlamaları məhz Bakının siyasəti və onların sayəsində gündəmdən çıxarıldı. Buna baxmayaraq, Paşinyan görüş ərəfəsində sayıqlamalarını davam etdirir. Onun əsas fikri, hələ ki, İlham Əliyevlə danışıqların formatını bir daha müzakirə etmək və bundan sonra danışıqların mahiyyəti üzrə davam etdirilməsinə keçməkdir. Ancaq Azərbaycan prezidenti qəti şəkildə bildirib ki, danışıqlar mövcud formatda da davam etdiriləcək. Bu fonda Vyana görüşü baş tutacaq və Paşinyan reallıqdan qaça bilməyəcək". Aydındır ki, əks təqdirdə bunun alternativi savaşdır və bu savaşda Ermənistanın çox ağır məğlubiyyətlər alacağı da qaçılmazdır. Bu səbəbdən hesab edilir ki, Vyana danışıqlarında Ermənistanın münaqişənin həllinə xidmət edən addımlar atması İrəvanın özünün gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Elə ABŞ-da nəşr olunan məhşur "Vaşinqton Post" qəzeti də yazır ki, İrəvan sülh üçün yaranan fürsəti qaçırmamalıdır: "Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanması fürsəti yaranıb. Uzun illərdir davam edən nəticəsiz danışıqlardan sonra həllə yol aça biləcək dəyişikliklər diqqət çəkir". Yazıda bir il əvvəl Ermənistanda baş vermiş hakimiyyət dəyişikliyinin Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində müsbət irəliləyişə yol aça biləcəyinə toxunulub: "Bölgədə baş verən müsbət dəyişikliklər münaqişənin həlli ehtimalını artırır. Son zamanlarda cəbhə xəttində atəşkəs rejiminin pozulması hallarının azalması da bundan xəbər verir. Üstəgəl, tərəflərin bir-birinə qarşı azalan təhdidedici bəyanatları və münaqişənin həlli prosesinə dəyişən baxışları da müharibə ehtimalını zəifldən, sülh sazişinin imzalanması ehtimalını yüksəldən faktorlar arasındadır. Görülən işlər, tərəflərin müzakirələri davam etdirmək istəyi də bura daxildir".

Məqalədə qeyd edilib ki, münaqişə tərəflərinin qısamüddətli anlaşmalar yerinə həll prosesinin sürətləndirilməsinə yönəlik işbirliyi qurmaq səyləri məsələnin dinc yolla həllinə kömək edəcək: "Digər yandan, münaqişənin həllinə təkan verə biləcək vasitəçilərin də prosesə cəlb edilməsi Ermənistan və Azərbaycan arasında düşmənçiliyi azalda bilər". Ermənistanın "Past" qəzetinin məlumatına görə isə, əslində, Qarabağ məsələsində ABŞ-ın da İrəvana təzyiqləri artır və Vaşinqton daha açıq şəkildə Bakının mövqeyini müdafiə edir. O da vurğulanır ki, Rusiyanın da Paşinyan hökumətinə münasibəti bəllidir və belə vəziyyətdə Ermənistan Qarabağ münaqişəsinə görə daha çox beynəlxalq təzyiqlərlə üzləşir. Aydındır ki, getdikcə daha da zəifləyən Ermənistanın bütün bunlara müqavimət göstərmək imkanları da yoxdur. Məhz bu vəziyyətdə Paşinyanın Vyana görüşündə Azərbaycanın şərtləri ilə razılaşmağa məcbur olacağı ehtimal edilir. Əks təqdirdə, yuxarıda qeyd olunduğu kimi, Bakı İrəvanı konstruktiv mövqeyə güc yolu ilə vida etməli olacaq. Bunun nəticələrinin Ermənistan üçün əsl fəlakət olacağına dair isə indiyə kimi kifayət qədər xəbərdarlıqlar edilib.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# 80-ci illərin sonunda Qarabağ münaqişəsi Azərbaycana qarşı separatizm və terror dalğasında başladı...



**Çar Rusiyası tərəfindən ermənilərin Cənubi Qafqaza, xüsusən də Azərbaycan torpaqlarına köçürülməsi bölgənin qaynar münaqişə ocağına çevrilməsinə səbəb oldu. 200 ilə yaxındır İran və Türkiyə ərazisindən köçürülərək torpaqlarımızda məskunlaşdırılan ermənilər burada özlərinə ev-eşik qurduqdan sonra açıq-aşkar şəkildə ərazilərimizə qarşı iddialar irəli sürməyə başladılar.**

Dünyanın böyük dövlətlərinin dəstəyinə arxalanan ermənilər Azərbaycan torpaqlarını mənimsəmək istiqamətində fəaliyyətə başladılar.

XX əsrin 80-ci illərinin sonlarından başlayaraq erməni şovinistləri, daşnakları Dağlıq Qarabağa qarşı iddialar irəli sürməyə başladılar. Daşnak ideologiyasına xidmət edən ermənilər ərazilərimizə sahib olmaq üçün torpaqlarımızı işğal etmək planını həyata keçirməyə başladılar. Qarabağ münaqişəsi torpaqlarımızın işğalına yol açdı.

Tarixçilərin qeyd etdiyinə görə, Qarabağ münaqişəsi haqqında danışarkən bir sıra hadisələri yada salmağımız lazımdır. 1987-ci ildə akademik Abel Aqanbekyanın təkidi ilə Parisdə keçirilən erməni ümummilli konqresi SSRİ-də yaranmaqda olan dəyişikliklərdən istifadə edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə məsələ qaldırdı. 1987-ci ilin iyun-iyul aylarında ermənilər Xankəndinin küçələrində vərəqlər yayır, Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün təbliğata başlayırlar. 1987-ci ilin oktyabr ayında İrəvanda "Qarabağ komitəsi" ilk açıq mitinq keçirir. Komitəyə İqor Muradyan və Levon Ter-Petrosyan başçılıq edirlər.

1987-ci il noyabrın 16-də Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Parisdə qəzetlərə müsahibə verərək, Dağlıq Qarabağın Ermənistana verilməsi ilə əlaqədar Qorbaçovu razı saldığını bildirir.

Məlum olduğu kimi, 1988-ci il 13 fevralda ermənilər Xankəndidə Vilayət Partiya Komitəsinin binası qarşısında ilk mitinqi keçirirlər. 400-ə qədər adamın iştirak etdiyi mitinqə "Krunk" terrorçu təşkilatının sədri Arkadi Manuçarov rəhbərlik edir.

1988-ci il 19 fevralda İrəvanda antitürk mövqeli mitinq keçirilir. Mitinqdə "Ermənistanı türklərdən təmizləməli", "Ermənistanda ancaq ermənilər yaşamalıdır" tələbləri irəli sürülür.

1988-ci il 19 fevralda Bakıda "Qarabağ bizimdir!" şüarları ilə ilk yürüş keçirilir.

1988-ci il 20 fevralda ermənilər Xankəndidə Vilayət Partiya Komitəsinin binası qarşısında 3 min nəfərin iştirak etdiyi növbəti mitinqlərini keçirirlər. Dağlıq Qarabağın Vilayət Soveti Ermənistana birləşmək haqda qərar çıxarır və SSRİ Ali Sovetinə göndərir.

1988-ci il 22 fevralda Əsgəran qəsəbəsində azərbaycanlıların dinc yürüşü erməni silahlıları tərəfindən güllələbaran edilir. 2 nəfər yeniyetmə - Əli Hacıyev və Bəxtiyar Quliyev öldürülür, 19 nəfər yaralanır.

1988-ci il 23 fevralda Vilayət Partiya Komitəsinin birinci katibi B.Gevorkov vəzifəsindən azad edilir, onun yerinə Genrix Poqosyan təyin olunur.

1988-ci il 28-29 fevral tarixlərində Sumqayıtda ermənilər tərəfindən təxribat xarakterli qırğınlar törədilir, 26 erməni, 6 azərbaycanlı öldürülür.

1988-ci il 14 mayda Şuşada azərbaycanlılar 5 min nəfərin iştirak etdiyi mitinq keçirir. Mitinqdə erməni silahlılarının hücumlarına son qoyulması tələb edilir.

1988-ci il 16 mayda ermənilər Xankəndidə bir qrup azərbaycanlını döyərək maşına yığır və Şuşaya göndərirlər.

1988-ci il 16 mayda Bakıda Dağlıq Qarabağ ermənilərinin separatçı hərəkətlərinə, Ermənistandan gələn emissarların oradakı fəaliyyətinə son qoyulması tələbləri ilə mitinq keçirilir.

Tarixçilər yazırlar ki, 1988-ci il 15 iyunda Ermənistan Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar qəbul edir. 1988-ci il 24 iyunda Arkadi Volski Moskvanın xüsusi nümayəndəsi kimi Dağlıq Qarabağa göndərilir.

1988-ci il 18-21 sentyabrda Xankəndidə azərbaycanlılar yaşayan evlər yandırılır, adamlar döyülür və Şuşaya göndərilir.

1988-ci il 21 sentyabrda Dağlıq Qarabağ və Ağdam ərazilərində xüsusi vəziyyət elan ounur.

1988-ci il 22 sentyabrda İrəvan, Leninakan, Abovyan, Eçmiədzin və digər şəhərlərdə Qarabağın Ermənistana birləşdirilməsi, azərbaycanlıların Ermənistandan çıxarılması tələbləri ilə kütləvi tətillər, mitinqlər keçirilir.

1988-ci il oktyabrın 4-də Dağlıq Qarabağın Xankəndi və Xocalı şəhərlərində azərbaycanlılara basqınlar edilir, onlar döyülür və köçüb getmələri tələb olunur.

1988-ci il 18 noyabr - 5 dekabrda Bakıda Azadlıq meydanında fasiləsiz izdihamlı mitinqlər keçirilir. Mitinq iştirakçıları ermənilərin Dağlıq Qarabağdakı vəhşiliklərinə, Ermənistanın Dağlıq Qarabağa müdaxilələrinə son qoyulmasını tələb edirlər.

1988-ci il 21 noyabrda Bakıda və Gəncədə iğtişaşlar baş verir, 3 hərbçi öldürülür, xeyli adam yaralanır. Bakı, Naxçıvan və Gəncədə xüsusi vəziyyət elan olunur.

1988-ci il 24 noyabrda Ermənistan ərazisindən Azərbaycanın Qubadlı rayonunun Eyvazlı, Qədirli, Davudlu kəndlərinə basqınlar edilir, Eyvazlı kəndi tamamilə yandırılır. Noyabrın sonunda Ermənistanın şimal-şərq hissəsindəki Vartan kəndində 12 azərbaycanlı diri-diri yandırılır və Ermənistanın Quqark rayonunda 70 nəfər azərbaycanlı qətlə yetirilir. Onlardan Gözəldərə kəndində 21 nəfər, o cümlədən 6 qadın, 3 körpə uşaq öldürülür.

1988-ci il dekabrın 8-də Ermənistanda Spitak zəlzələsindən zərər çəkənlərə yardım məqsədilə Azərbaycandan 80 peşəkar xilasedici, mexanikləşdirilmiş dəstə Spitaka yola düşür. Onlar bir neçə gün ərzində 63 nəfəri xilas edirlər.

1988-ci il dekabrın 10-da zəlzələ ilə əlaqədar olaraq Yuqoslaviyadan göndərilən təyyarə Belqrad-Ankara-İrəvan marşrutu ilə Ermənistana uçur. Ankaradan uçduğu üçün ermənilər onu türk təyyarəsi hesab edərək qəzaya uğradırlar. Təyyarənin 6 nəfərlik şəxsi heyəti həlak olur.

1988-ci il 11 dekabrda zəlzələ ilə əlaqədar olaraq Azərbaycanın xilasedici dəstəsi Ermənistanın Leninakan şəhərinə uçur. Ermənilər yanlış koordinat verərək təyyarəni qəzaya uğradırlar. 69 nəfər xilasedici və 4 nəfər ekipaj üzvü həlak olur. Yalnız bir nəfər xilasedici salamat qalır. Onu xəstəxanaya yerləşdirirlər, lakin az sonra ermənilər mitinq edərək onun xəstəxanadan çıxarılmasına nail olurlar.

1988-ci il dekabrın 15-də SSRİ rəhbərliyi Azərbaycan və Ermənistan rəhbərlərinə bir sıra qanunsuz hərəkətlərə görə öz respublikalarında vəzifəli şəxslərin cəzalandırılması tapşırığını verir. Bir ay ərzində Azərbaycanda erməniləri guya sıxışdırdıqlarına görə 2532 nəfər məsuliyyətə cəlb olunur, 222 nəfər işdən çıxarılır, 65 nəfər partiya və komsomoldan çıxarılır. Bu tədbirlərdən sonra 19 min nəfərdən çox erməni Azərbaycana qayıdır. Ermənistanda isə həmin vaxt ərzində 13 nəfər partiyadan xaric edilir, 24 nəfər vəzifəsindən çıxarılır, 69 nəfərə partiya cəzası verilir. Ermənistana bir nəfər də olsun azərbaycanlı qaytarılmır.

1988-ci il dekabrın 28-də Ermənistandan 250 mindən çox azərbaycanlının deportasiya edilməsi əsasən başa çatdırılır.

Qeyd edilənə görə, 1989-cu il 12 yanvarda SSRİ Ali Soveti tərəfindən Dağlıq Qarabağ ərazisində Xüsusi İdarə Komitəsi yaradılır. Komitəyə Moskvanın nümayəndəsi Arkadi Volski rəhbər təyin edilir. Komitənin təkibinə 5 rus, 2 erməni və 1 azərbaycanlı təyin edilir.

1989-cu il 6 mayda SSRİ Xalq Deputatlarının Birinci Qurultayı Moskvada öz işinə başlayır. Qurultay ermənilərin maraqlarına uyğun qərarlar qəbul edir.

Tarixçilər bildirirlər ki, 1989-cu il 6 iyulda Xankəndi yaxınlığındakı azərbaycanlılar yaşayan Kərkicahan qəsəbəsi yandırılır.

1989-cu il iyulun 8-də ermənilər Xankəndidə "Miatsum" hərəkatının təsis yığıncağını keçirir və Robert Köçəryanı hərəkata sədr seçirlər.

1989-cu il 16 iyulda Azərbaycan Xalq Cəbhəsi yaradılır və Əbülfəz Elçibəy sədr seçilir.

1989-cu il 29 iyulda ermənilərin davamlı hücumlarının nəticəsi olaraq Azərbaycanın mərkəzindən Naxçıvana gedən qatarların hərəkəti tamamilə dayandırılır. Naxçıvan Muxtar Respublikası blokada vəziyyətinə düşür.

1989-cu il avqustun 16-da Xankəndidə ermənilər "Dağlıq Qarabağ əhalisinin qurultayı"nı keçirir, Milli Şura və rəyasət heyəti yaradırlar. Qurultay Dağlıq Qarabağı "müstəqil ittifaq ərazisi" elan edir.

1989-cu il 15 sentyabrda Azərbaycan Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağdakı Xüsusi İdarə Komitəsi ləğv olunur.

1989-cu il 16 sentyabrda ermənilər Tiflis-Bakı avtobusunu partladırlar, 5 nəfər ölür, 25 nəfər yaralanır.

1989-cu il 21 sentyabrda Xankəndidə yaşayan azərbaycanlılar döyülərək şəhərdən qovulurlar.

1989-cu il oktyabrın 7-də erməni terrorçusu A.Abramyan tərəfindən Şuşanın Xəlfəliçay körpüsü partladılır.

1989-cu il dekabrın 1-də Ermənistanın Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqda qərar qəbul edir.

1989-cu il dekabrın 6-da Azərbaycanın Ali Soveti tərəfindən Dağlıq Qarabağ üzrə Respublika Təşkilat Komitəsi yaradılır, komitəyə Azərbaycan partiya təşkilatının rəhbərlərindən olan Viktor Polyaniçko sədr təyin edilir.

1989-cu il 31 dekabrda Araz çayı boyunca 137 km-lik sərhəddə sərhəd qurğuları dağıdılır.

1990-cı il yanvarın 4-də erməni terrorçusu Q.Sarkisyan Əsgəran-Ağdam körpüsünü partladır.

1990-cı il 12 yanvarda Ermənistandan 500 nəfərlik silahlı dəstə vertolyotlarla Azərbaycanın Xanlar rayonunun Quşçu kəndinə gələrək, kəndi dağıdır, onlarla dinc sakini öldürürlər.

1990-cı il 15 yanvarda SSRİ Ali Soveti Dağlıq Qarabağ və ətraf rayonlarda fövqəladə vəziyyət elan edir.

1990-cı il yanvarın 18-də Ermənistanın silahlı birləşmələri tərəfindən Naxçıvan Muxtar Respublikasının Kərki kəndi işğal edilir.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunları Bakıya daxil olaraq qırğın törədirlər. Rəsmi məlumatlara görə 131 nəfər həlak olur, 800-dən artıq adam yaralanır.

Tarixçilər qeyd edirlər ki, 1990-cı il 18 fevralda ermənilər Şuşa-Bakı avtobusunu partladırlar, 13 nəfər yaralanır.

1990-cı il iyulun 11-də Tərtərdən Kəlbəcərə gedən maşın karvanına ermənilər silahlı hücum edirlər. 14 nəfər həlak olur, 35 nəfər yaralanır.

1990-cı il 10 avqustda Tiflis-Ağdam avtobusu erməni terrorçuları A.Avanesyan və M.Tatevosyan tərəfindən partladılır. 20 nəfər ölür, 30 nəfər yaralanır.

1990-cı il 10 avqustda Ermənistan terrorçuları tərəfindən Şəmkir-Gəncə avtomobil yolunda avtobus partladılır. 17 nəfər həlak olur, 26 nəfər yaralanır.

1990-cı il 20 avqustda Ermənistan silahlı qüvvələri Qazax rayonunun Bağanıs Ayrım kəndini işğal edirlər. 5 nəfər kənd sakini öz evlərində diri-diri yandırılır.

1990-cı il 30 noyabrda Ermənistan terrorçuları tərəfindən Xankəndi yaxınlığında sərnişin avtobusu partladılır. 2 nəfər həlak olur, 11 nəfər yaralanır.

1990-cı il 15 dekabrda Samvel Babayanın terror qrupu Əsgəranda 3 nəfər azərbaycanlını qətlə yetirir.

Məlum olduğu kimi, 1991-ci il yanvarın 9-da Laçın-Şuşa yolunda 5 nəfərlik erməni terror qrupu "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri Salatın Əsgərovanı və 2 nəfər hərbçini qətlə yetirir.

1991-ci il 14 yanvarda Azərbaycan Ali Soveti Şaumyan (kənd) rayonunun ləğvi haqqında qərar qəbul edir.

1991-ci il aprelin 18-də erməni terrorçusu Q.Sarkisyan Xocavənd rayonunda 3 azərbaycanlı milis işçisini öldürür.

1991-ci il 30 mayda erməni terrorçuları Moskva-Bakı qatarını partladırlar. 11 nəfər ölür, 22 nəfər yaralanır.

1991-ci il 19 iyunda erməni terrorçuları Yevlax-Laçın yolunda avtomaşını partladırlar. 11 nəfər həlak olur, 3 nəfər yaralanır.

1991-ci il 27 iyunda "Qarabağ" adlı erməni terror təşkilatı Dağlıq Qarabağın Qaradağlı kəndinə hücum edir, 6 nəfər azərbaycanlı öldürülür.

1991-ci il iyulun 31-də erməni terrorçuları tərəfindən Moskva-Bakı sərnişin qatarı partladılır, 16 nəfər ölür, 20 nəfər yaralanır.

1991-ci il avqustun 2-də Dağlıq Qarabağın Hadrut rayonunun Dolanlar kəndində ermənilər tərəfindən avtomaşın partladılır, 4 nəfər həlak olur, 8 nəfər yaralanır. Avqustun 8-də Ermənistan hakimiyyəti tərəfindən orada azərbaycanlıların yaşadıqları sonuncu Nüvədi kəndi boşaldılır, əhalisi döyülərək Ermənistandan qovulur. Avqustun 21-də Dağlıq Qarabağın Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında avtobus partladılır, 2 nəfər həlak olur, 10 nəfər yaralanır. Avqustun 23-də Şuşa-Cəmilli yolunda avtobus erməni terrorçuları tərəfindən atəşə tutulur, 4 nəfər həlak olur, 13 nəfər yaralanır.

1991-ci il avqustun 30-da Azərbaycan müstəqilliyinin bərpa olunması haqda bəyannamə ilə çıxış edir.

1991-ci il sentyabrın 2-də ermənilər "Dağlıq Qarabağ Respublikası" adında qondarma qurumun yarandığını elan edirlər.

1991-ci il oktyabrın 18-də Azərbaycan "Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul edir. 1991-ci oktyabrın 19-da Dağlıq Qarabağın Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında ermənilər tərəfindən avtomaşın partladılır, 3 nəfər həlak olur, 2 nəfər yaralanır.

1991-ci il noyabrın 20-də erməni terrorçuları tərəfindən Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında "Mİ-8" vertolyotu vurulur.

1991-ci il noyabrın 26-da Azərbaycan parlamenti Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv olunması haqda qanun qəbul edir. Noyabrın 27-də SSRİ Dövlət Şurası DQMV-nin ləğvi ilə bağlı qərarın dəyişdirilməsini Azərbaycan rəhbərliyindən tələb edir.

1991-ci il dekabrın 10-da Dağlıq Qarabağ erməniləri "referendum" keçirir, "müstəqilliyə" səs verirlər. Dekabrın 23-də ermənilərin "Qarabağ" adlı terror təşkilatı Dağlıq Qarabağın Əsgəran rayonunun Meşəli kəndinə hücum edir, 6 nəfər öldürülür, 15 nəfər yaralanır. Bundan sonra erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın və ətraf rayonların işğalı həyata keçirilir. İşğal nəticəsində torpaqlarımızın 20 faizini itirdik və 1 milyondan artıq vətəndaşımız öz torpaqlarından köçkün düşdülər.

Ermənistan bu gün də öz işğalçılıq siyasətini davam etdirir və torpaqlarımızı işğal altında saxlayır. BMT-nin Dağlıq Qarabağla bağlı qəbul etdiyi 4 qətnamə isə yerinə yetirilmir.

1994-cü ildə atəşkəs haqqında saziş imzalanmasına baxmayaraq, bu gün də Ermənistan ordusu yaşayış məntəqələrimizi atəşə tutur və hərbi qulluqçularla yanaşı, dinc sakinləri də qətlə yetirir.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**ABŞ prezidenti Donald Tramp İsrailin Qolan yüksəklikləri üzərində suverenliyini ABŞ-ın rəsmən tanıdığını elan edən sənədi imzalayıb. ABŞ prezidenti sənədə imzanı İsrailin baş naziri Binyamin Netanyahu ilə görüşü zamanı atıb.**

# Tramp dünyanın əsas təhlükəsizlik prinsipini işğalçı dövlətlərin ayaqları altına atdı - "hərbi güc ədalətdən üstündür" dövrü rəsmən başlandı...

## *Nəzakət Məmmədova: "Bu, faktiki işğala bəraət qazandırmaqdır"*



İsrailin özünü qorumaq hüququnun olduğunu deyə Tramp bildirib ki, gələcəkdəki barış anlaşmasında, İsrailin özünü İrandan və bölgədəki digər təhdidlərdən qoruması ehtiyacı nəzərə alınmalıdır. Tramp, İsrailin Qəzzada keçirdiyi hərbi əməliyyatların "özünü müdafiə" mənasında haqlı olduğunu və Netanyahuya bu mövzuda tam dəstək verdiklərini söyləyib.

Netanyahu qarşılığında Amerika liderinə minnətdarlığını bildirib: "İsrail heç vaxt sizdən daha yaxşı dost görməyib".

Trampın İsraillə bağlı indiyi kimi verdiyi bütün sözlərə əməl etdiyini deyən Netanyahu, Qolan yüksəklikləri ilə bağlı sənədin imzalanma gününü tarixi hadisə adlandırıb.

Mətbuat konfransından sonra Tramp canlı yayımda İsrailin Qolan yüksəklikləri üzərində suverenliyini tanıyan sənədi imzalayıb.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın Qolan təpələri üzərində İsrailin suverenlik haqqını tanıması məsələsinin BMT Baş Assambleyasında müzakirəyə çıxarılmasını tələb edib.

Ərdoğan Assambleya çərçivəsində ABŞ prezidentilə şəxsən görüşərək ona öz etirazını bildirmək niyyətindədir.

Türkiyə prezidenti deyib ki, BMT artıq bu barədə qərar qəbul edib və Trampla görüşərək, ona "Qolan təpələrini qızıl sinidə Netanyahuya seçki hədiyyəsi etməklə" böyük səhvə yol verdiyini şəxsən söyləmək istəyir. Ərdoğan deyib ki, Trampın bu addımı bütün dünyada sülhə təhdiddir və o əmindir ki, BMT "işğalın qanuniləşdirilməsinə" imkan verməyəcək.

Xatırladaq ki, daha öncə Tramp özünün Twitter hesabında ABŞ-ın İsrailin 1967-ci ildə Suriya ilə müharibə nəticəsində işğal etdiyi Qolan təpələri üzərində haqqını tanımasının zamanı gəldiyini yazmışdı.

Faktiki olaraq Tramp bununla çox təhlükəli presedentin əsasını qoyub. Onun qəbul etdiyi bu qərarın dünya üçün hansı fəsadları ola bilər?

Politoloq Nəzakət Məmmədova baki-xeber.com-a açıqlamasında bildirdi ki, Trampın addımı doğurdan da təhlükəli presedentin əsasını qoydu: "Qüdsün İsrailin paytaxtı kimi tanınmasına dair imzaladığı qərarın mürəkkəbi qurumamış ikinci şok effekti verən belə bir qərar doğurdan da təəssüfvericidir, beynəlxalq hüququn və mövcud beynəlxalq münasibətlərin təkzib edilməsidir. Bu, faktiki işğala bəraət qazandırmaqdır. Belə çıxır ki, Ermənistan Dağlıq Qarabağ ətrafında işğal etdiyi 7 rayonu da öz torpağı hesab edə bilər?! Doğrudur, ABŞ yaxud Rusiyanın beynəlxalq siyasətdəki addımları seçilmiş, lokal xarakteri daşıyır, necə ki, Kosovo və Krım məsələləri. Amma hər bir halda beynəlxalq hüquq hamı üçün eyni olmalıdır. Güclünün zəif üzərində hökmranlığı, hüququ görməzdən gəlməsi, beynəlxalq ədalətə riayət olunmaması yolverilməzdir. Qolan təpələri 1948-ci il mayın 14-də BMT qərarı əsasında İsrail dövləti yarananda onun hamılıqla tanınmış ərazi vahidinə daxil olmayıb. 1967-ci il "Harb əl-ayyamə" deyilən, bizim Altıgünlük müharibə dediyimiz Ərəb-İsrail savaşı zamanı İsrail tərəfindən işğal olunub. Müharibənin gedişatında zəbt edilən torpaqlar qaytarılmayıb və İsrail ərazisi kimi təsbit olunur. Həm də bunu indiyədək heç bir Amerika prezidenti etməmişdi ki, Tramp etdi".

Politoloqun sözlərinə görə, həm də bu prosesin əsas mərkəzi Suriya torpaqlarının parçalanmasından başlayır: "Xatırlayıroq ki, Bərzani İraqda referendum keçirəndə ABŞ ona gözləməyi tövsiyə etmişdi. Məqsəd Yaxın Şərqin parçalanması planını İraqdan deyil, Suriyadan başlamaq idi. Məqsəd "Böyük İsrail" yaratmaqdır. ABŞ-ın bu addımı beynəlxalq hüququn getdikcə öz qüvvəsini itirməsinə, BMT qətnamələrinin mənasız sənədə çevrilməsinə, Yaxın Şərqdə və ümumilikdə beynəlxalq münasibətlər sistemində xaosa, sivilizasiyalararası qarşıdurmanın güclənməsinə, güclünün zəif üzərində hegemonluğunun kristallaşmasına səbəb ola bilər".

*Məhəmmədəli QƏRİBLİ*

**Alabama ştatının qubernatoru Koy Yu qondarma "erməni soyqırımı"nın tanınması haqda bəyannaməni imzalayıb. Bu haqda erməni KİV-i Amerika Erməni Milli Komitəsinin (ANKA) "Facebook" səhifəsindəki xəbərə istinadən məlumat yayıb. Buna görə qubernatora təşəkkür edən Komitə xatırladıb ki, bu imza ilə Alabama ABŞ-ın erməni soyqırımını tanıyan 49-cu ştatı olub.**

# Hətta bütün ABŞ ştatları uydurma erməni genosidini tanısa... Ermənistanın planlarını pozan böyük güc...

## *Yeganə Hacıyeva: "Dünya çapında Türkiyə və Azərbaycanın mövqelərinin güclənməsi ABŞ ştatlarının qərəzli yanaşmasını tam neytrallaşdıra bilər"*



Erməni soyqırımını hələ də tanımayan yeganə ştat Missisipidir. Əslində ermənilərin bu "nailiyyətləri" ətrafında narahatlığa heç bir əsas yoxdur. Çünki indiyə qədər bir çox ABŞ ştatlarının bu yöndə atdıqları addımların heç bir müsbət nəticəsi olmayıb. Hər halda, görünən budur ki, Türkiyə və Azərbaycanın mövqeyi dünya müstəvisində gücləndikcə, hətta ABŞ-ın bütün ştatlarının "qondarma soyqırımı" tanımasının belə heç bir real təhlükəsi olmayacaq. ABŞ-ın bütün ştatlarının "qondarma erməni soyqırımını" tanıması hansı perspektivi vəd edir?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə bildirdi ki, əvvəla, ABŞ ştatlarının nümayiş etdirdiyi bu qərəzli mövqeyə təəssüflənmək lazımdır: "Bəllidir ki, bu uzun illərdən bəri ABŞ-da güclü maliyyə və təsir imkanlarına malik olan erməni lobbisinin fəaliyyəti nəticəsində mümkün olub. Hətta ermənilərin həvəslə gözlədikləri hadisə baş versə belə, bunun elə də böyük fəsadı olmayacaq. Söhbət bütün ABŞ ştatlarının saxta "soyqırımı" tanımasından gedir. Türkiyə-ABŞ münasibətləri çox ciddi təməllər üzərində qurulub. Ancaq ikitərəfli münasibətlərə xələl gətirə biləcək bir vəziyyət də yaranmış ola bilər. ABŞ-ın bəzi ştatları elə qətnaməni qəbul edəndə biz münasibətlərin gərginləşdiyini görmüşük. Bir faktı da qeyd edək ki, hansısa ştatın bir qərarı qəbul etməsi sırf hökumətin marağı kimi yozula bilməz. Amerikada ştatların və onların qanunverici orqanlarının geniş hüquqları var. Məsələn, elə ştat var ki, orada ölüm cəzası tətbiq olunur, eləsi var ki, tətbiq olunmur. Alabama Amerikanın böyük ştatlarındandır. Təəccüb doğuran isə odur ki, hətta ermənilərin sayı çox olmayan ştatların qanunverici orqanları da erməni lobbisinin təsiri altına düşüb. Əlbəttə, Vaşinqtonda anlamalıdırlar ki, ştatların "erməni soyqırımı"nı tanıması ABŞ-Türkiyə münasibətlərinə yaxşı heç nə vəd etmir. Ancaq Amerikada xarici siyasətə cavabdeh olan Dövlət Departamentinin ştatlara "Sizin qətnamələr xarici siyasət və təhlükəsizlik məsələlərində Amerikaya problemlər yaradır" kimi xəbərdarlıq göndərəcəyini zənn etmirəm. Belə olsaydı, Dövlət Departamenti ilk növbədə Konqresin komissiyalarını xəbərdar etməliydi ki, hər dəfə Türkiyə əleyhinə erməni kartından istifadə etməsinlər. Erməni diasporunun bu məsələdə hədəfi bəllidir. Onların xülyasına görə, bütün ştatlar "erməni soyqırımı"nı tanıdıqdan sonra ABŞ prezidentinin də "soyqırımı" tanıması məsələsi aktuallaşacaq. Onda, istər-istəməz təzyiq artacaq və bu gedişatla Ankara bu prosesin qarşısını ala bilməyəcək. Hesab edirəm ki, Türkiyə bu istiqamətdə fəallığını artırmalı və ABŞ-a öz etirazını bildirməlidir.

**Xüsusilə də dünya çapında Türkiyə və Azərbaycanın mövqelərinin güclənməsi ABŞ ştatlarının qərəzli yanaşmasını tam neytrallaşdıra bilər. Bunun üçün dünyadakı türk və azərbaycanlı diasporlar daha da sıx birləşməli, vahid mövqe ortaya qoymalıdır".**

*Məhəmmədəli QƏRİBLİ*

# Müharibə veteranları üçün ayrıca Prezident təqaüdünə millət vəkilinin öz baxışı var

**Prezident İlham Əliyevin 25 fevral 2019-cu il tarixli Sərəncam ilə müharibə veteranlarına 80 manat məbləğində aylıq təqaüd təyin olunub. Müharibə veteranlarının sosial rifah halının yüksəlməsində, onların kommunal xərclərinin qarşılanmasında mühüm rol oynayacaq təqaüdü bu qəbildən olan bütün insanlar ala biləcək.**



*"Bu da 80 min nəfərdən ibarət müharibə veteranlarına dövlət dəstəyinin əhəmiyyətli şəkildə artırıldığından xəbər verir"*

***Naqif Həmzəyev:** "Novruz bayramı ərəfəsində belə bir sərəncamın dövlət başçısı tərəfindən imzalanması bütün müharibə veteranları, onların ailələri üçün əsl bayram hədiyyəsi oldu"*

Millət vəkili Naqif Həmzəyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkəmizdə sosial siyasət davamlı xarakter alıb. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla davam etdirilən sosial siyasət həyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərməkdədir. "Hər bir ölkə vətəndaşına qayğı, onların yaşayış səviyyəsinin yüksəldilməsi üçün həyata keçirilən tədbirlər respublikada əhalinin sosial vəziyyətinin getdikcə yaxşılaşması üçün əsaslı zəmin yaradıb. Ölkə Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu gün tam əminliklə demək olar ki, Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri şəhid ailələrinin, müharibə veteranlarının və əlillərinin sosial müdafiəsidir. Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı döyüşlərdə şəhid olanların ailə üzvləri, fiziki sağlamlığını itirmiş vətəndaşlar, həmçinin, Böyük Vətən Müharibəsi əlilləri, hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslər, 20 Yanvar və Çernobıl əlillərinin mənzil-məişət şəraitləri yaxşılaşdırılır, onlara Prezident təqaüdü verilir. Artıq ölkəmizdə məcburi köçkünlər çadır şəhərciklərində deyil, onlar üçün salınan müasir standartlara uyğun evlərdə yaşayırlar".

N.Həmzəyev qeyd etdi ki, fiziki sağlamlığını itirən müharibə əlilləri üçün hər cür lazımi şərait yaradılır. Millət vəkilinin bildirdiyinə görə, şəhid ailələri və əlillərə mütəmadi olaraq yeni mənzillər, müharibə əlillərinə avtomobillər verilir, hər iki statusa malik olanların övladları ali təhsil müəssisələrində dövlət hesabına təhsil alırlar, onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər. "Lakin bu son deyil. Dövlətin bu təbəqəyə göstərdiyi diqqətin davamı olaraq ölkə Prezidentinin 25 fevral 2019-cu il tarixdə imzaladığı Sərəncama əsasən, aprel ayının əvvəlindən müharibə veteranlarına Prezidentin aylıq təqaüdü veriləcək. Sərəncama uyğun olaraq, müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət (55 manat) əvəzinə, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə (11 manat) əvəzinə Prezidentin 80 manat məbləğində aylıq təqaüdü veriləcək. Bu da 80 min nəfərdən ibarət müharibə veteranlarına dövlət dəstəyinin əhəmiyyətli şəkildə artırıldığından xəbər verir. Ümumiyyətlə, Azərbaycanda müharibə veteranlarına və əlillərinə yüksək dövlət qayğısı dövlətin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin ardıcıl olduğunu sübut edir. Novruz bayramı ərəfəsində belə bir sərəncamın dövlət başçısı tərəfindən imzalanması isə bütün müharibə veteranları, onların ailələri üçün əsl bayram hədiyyəsi oldu" - deyə millət vəkili bildirdi.

*İradə SARIYEVA*

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**ASLANOV QASIM İSA oğlu**

28 avqust 1961-ci ildə



Azərbaycan Respublikasının Goranboy rayonunda doğulmuşdur. İtkin düşənə qədər Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində yaşamışdır. Mülki şəxs. Aslanov Qasım İsa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələr tərəfindən 2 fevral 1992-ci ildə Ağdərə rayonu işğal olunduğu zaman itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Qasım İsa oğlu 2 fevral 1992-ci il tarixində erməni silahlı birləşmələri Ağdərə rayonunu işğal edən zaman Talış kəndi ərazisində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürüldüyü ehtimal olunur.

Aslanov Qasım İsa oğlunun sonraki taleyi barədə məlumat yoxdur.

**ASLANOV MƏHƏMMƏDƏLİ PƏNAH oğlu**

1 dekabr 1958-ci ildə Azərbaycan Respublikasının Gəncə şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Gəncə şəhərinin Nizami rayonunda yaşamışdır. Nizami RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov Məhəmmədəli Pənah oğlu Azərbaycan



Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 17 aprel 1994-cü il tarixində Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Məhəmmədəli Pənah oğlu 17 aprel 1994-cü il tarixində Ağdərə rayonunun Talış kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Aslanov Məhəmmədəli Pənah oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOV MƏMMƏD HÜSEYN oğlu**



1941-ci ildə Azərbaycan Respublikasının Şuşa rayonunda doğulmuşdur. İtkin düşənə qədər Şuşa rayon mərkəzində yaşamışdır. Mülki şəxs. Aslanov Məmməd Hüseyn oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələr tərəfindən 8 may 1992-ci ildə Şuşa rayonu işğal olunduğu zaman itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Məmməd Hüseyn oğlu 8 may 1992-ci il tarixində erməni silahlı birləşmələri Şuşa rayonunu işğal edən zaman naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürüldüyü ehtimal olunur.

Aslanov Məmməd Hüseyn oğlunun sonraki taleyi barədə məlumat yoxdur.

**ASLANOV RAUF YOLÇU oğlu**

18 iyun 1971-ci ildə Azərbaycan Respublikasının Goranboy rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Goranboy rayonunun Qaramusalı kəndində yaşamışdır. Goranboy RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov Rauf Yolçu oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı 12 oktyabr



1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Rauf Yolçu oğlu 12 oktyabr 1992-ci il tarixində Laçın rayonunun Fingə kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Aslanov Rauf Yolçu oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

**Problemli kreditlərin həlli istiqamətində ölkə rəhbərliyi tərfindən atılan addımlardan sonra əsas gözləntilərdən biri bankların verdikləri kreditlərin faizlərini aşağı salması ilə bağlıdır. İndilikdə görünən budur ki, banklar məsələnin könüllü şəkildə həllinə razılıq vermir. Bunu, Mərkəzi Bankın uçot dərəcəsini aşağı salmasına rəğmən, bankların hələ də faiz endirimlərinə getməməsi də təsdiq edir.**

# Banklar daha kreditlərə yüksək faizlər tətbiq edə bilməyəcək...




Xatırladaq ki, uçot dərəcəsini Mərkəzi Bank son aylar ərzində əhəmiyyətli dərəcədə azaldıb. Bir neçə gün əvvəl də Mərkəzi Bankın İdarə Heyəti uçot dərəcəsinin 9,25%-dən 9%-ə endirilməsi haqda qərar qəbul edib. Faiz dəhlizinin yuxarı həddi 11%, aşağı həddi isə 7% səviyyəsində müəyyən edilib. Bundan öncə AMB fevralın 1-də uçot dərəcəsinin 9.75 faizdən 9.25 faizə endirilməsi barədə qərar vermişdi. Kreditlərin ucuzlaşmasını şərtləndirən əsas amillərdən biri də Mərkəzi Bankın uçot dərəcəsidir. Uçot dərəcəsinin aşağı endirilməsi isə o deməkdir ki, bank kreditlərinin faizində dəyişiklik olmalıdır. Çünki bankların əldə etdikləri kreditlərin də faizi bununla bağlı olaraq aşağı düşür. Yəni uçot dərəcəsi mərkəzləşdirilmiş kredit hesab olunur. Sadə dillə desək, Mərkəzi Bank tərəfindən kommersiya banklarına verilən kreditlərin orta faiz dərəcəsidir. Amma reallıqda uçot dərəcəsi kredit faizlərinə təsir etmir. Düzdür, araşdırmalar göstərir ki, Azərbaycanda uçot dərəcələrinin iqtisadiyyata təsir etməməsinin səbəbi bankların kredit portfelində mərkəziləşdirilmiş kreditlər, yəni Mərkəzi Bank tərəfindən ayrılmış kreditlərin payının çox az olmasıdır. Belə ki, mərkəzləşdirilmiş kredit resursları bankların cəlb etdiyi bütün mövcud vəsaitlərin cəmi 5 faizini təşkil etdiyindən, uçot dərəcəsinin aşağı salınması hissedilən faiz endirimlərinə gətirib çıxarmır.

Digər tərəfdən, mərkəzləşdirilmiş kreditlərdən heç də bütün bankların istifadə imkanları olmadığından, uçot dərəcəsi ilə bağlı qərar bütün bank sektorunu əhatə edə bilmir. Azərbaycanın əksər aparıcı banklarında mərkəzləşdirilmiş kreditlərin payı cüzidir. Bu səbəbdən indilikdə uçot dərəcəsinin aşağı salınmasından yalnız mərkəzləşdirilmiş kreditlərə çıxış imkanları olan az sayda banklar yararlana bilir. Belə vəziyyətdə aydındır ki, kredit faizlərinin aşağı salınması da çətinləşir. Amma Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin "Banklar haqqında" qanuna dəyişikliyi nəzərdə tutan layihəni artıq plenar iclasa tövsiyə etməsi vəziyyəti tamam dəyişə bilər.

Qeyd edək ki, "Banklar haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müştərilərin maraqlarının qorunması məqsədilə kredit müqavilələri üzrə faiz dərəcələrinin, komissiya haqlarının və bank xidmətləri üçün digər ödənişlərin optimallaşdırılmasına görə onların yuxarı həddinin tənzimlənməsini nəzərdə tutur. Yəni artıq bankların verdikləri kreditlər üçün müəyyən yuxarı hədd müəyyən olunması gündəmdədir və belə vəziyyətdə banklar daha yüksək kredit faizlərindən istifadə edə bilməyəcək. Gözlənir ki, faizlərə Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən nəzarət olunsun.

Digər tərəfdən, qanunla kredit və depozit faizləri arasındakı uçurumun aradan qaldırılması hədəflənir. Məlumat üçün bildirək ki, Azərbaycan banklarının əmanət və kredit faizləri arasındakı fərq son aylar özünü qabarıq büruzə verirdi. Belə ki, aparıcı banklar artıq xarici valyutada olan əmanətlərə çox az miqdarda dividend təklif edirlər. Bəzi banklarda hətta avro depozitləri dividendsiz qəbul olunur. Manat əmanətləri də cəlbediciliyini itirməkdədir. İllik əmanətlər 7 faiz gəlir gətirir. Bununla belə, illik 7 faizlik əmanət qəbul edən banklar gündəlik tələbat kreditlərinin faizini 30-dək təklif edirlər. Bu isə o deməkdir ki, bank vətəndaşdan 7 faizlə aldığı manatı digər vətəndaşımıza 4 dəfə baha faizlə kredit formasında təklif edir. Xarici valyutalar üzrə isə daha yüksək fərq müşahidə edilməkdədir. Elə bu fonda kredit faizlərinin tənzimlənməsi üçün liberal iqtisadi qanunlar çərçivəsində həm Mərkəzi Bank, həm da Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən prosesə müdaxilə edilməsi vacib sayılır. "Banklar haqqında" qanunda dəyişiklik edilməsi buna tam imkan yaradır. Hesab olunur ki, dəyişikliklər qəbul edilərsə, kreditlər üzrə faiz dərəcələri enəcək, eyni zamanda əmanət və kredit faizləri arasındakı fərq də xeyli azalacaq.

***Tahir TAĞIYEV***

**Son günlər soğanın satış qiyməti bahalaşıb. 1 həftə əvvəl kilosu 60-70 qəpik arasında olan soğan hazırda 1 manat 50 qəpiyə satılır. Satıcılar soğanın satış qiymətinin yüksəlməsinin məhsulun az, tələbatın isə çox olması ilə bağlı olduğunu bildirirlər.**

# Nazirliyin Aqrar Tədqiqatlar Mərkəzi soğanın manat yarıma qalxmasını necə izah etdi...



***Firdovsi Fikrətzadə:** "Yaxın günlərdə soğanın qiymətinin ucuzlaşacağı gözlənir"*

***Nicat Nəsirli:** "Soğanın qiymətinə təsir edən ciddi faktor..."*

Soğanın satış qiymətinin nə səbəbdən yüksəldiyini öyrənmək üçün Kənd Təsərrüfatı Nazirliyinə müraciət etdik. Nazirliyin Aqrar Tədqiqatlar Mərkəzinin müşaviri Firdovsi Fikrətzadə bildirdi ki, ötən ilin analoji dövründə soğanın qiyməti 60-70 qəpik təşkil edib: "Hazırda isə soğanın pərakəndə satış qiyməti 1 manat 20 qəpik - 1 manat 30 qəpik arasında dəyişir. Bunun da əsas səbəbi bu ilin yaz mövsümündə Türkiyəyə soğan ixracının gözlənilməz şəkildə artmasıdır. Adətən Azərbaycanda yanvar-mart ayları ərzində 2-3 min ton soğan ixrac olunurdusa, bu ilin 2 ayı ərzində 7300 ton soğan ixrac edilib. Ötən ilin eyni dövründə cəmi 1200 ton soğan ixrac olunub. Bu ilin 2 ayı ərzində ixrac edilən 7300 ton soğanın 5900 tonu Türkiyəyə göndərilib. Bu isə bazar şərtlərinə təsir edib. Bir neçə ay sonra faraş soğan istehsal olunacaq. Biz ixracı bunun hesabına daha da artıracağıq".

Həmsöhbətimizin sözlərinə görə, yaxın günlərdə soğanın qiymətinin ucuzlaşacağı gözlənir: "Soğanın qiymətindəki bahalaşma qısamüddətli bazar ajiotajıdır. Məlumat üçün bildirim ki, 2016-cı ildə Rusiya bazarlarına sanksiyalarla əlaqədar ixrac artmışdı. Amma həmin vaxt da bahalaşmada ixracın həcminin artımından çox ajiotaj daha böyük rol oynadı. İndi hamı düşünür ki, soğan Türkiyəyə satılır deyə, qıtlıq olacaq. Amma hazırkı qiymət bahalaşması sırf Türkiyəyə soğan ixracının artımı ilə əlaqədar yaranmış ajiotajdan doğur. Ajiotaj səngiyən kimi, soğanın qiyməti əvvəlki həddində qərarlaşacaq. Yaxın günlərdə soğanın qiymətinin mövsümün qiymət səviyyəsinə uyğun olacağını düşünürəm.

Sahibkarlar bazarın reaksiyasına uyğun olaraq, istehsal həcmini artırıblar. Soğanda ixrac ənənəsinin yaranması müsbət haldır. 2017-ci ildə 56 min ton, 2018-ci ildə 40 min ton soğan ixrac etmişik. Hansı ki, tarixən həmişə ildə 3-5 min ton faraş soğan ixrac olunub. Növbəti dəfə daxili bazarda qiymətlərin stabilliyi təmin olunmaq şərtilə bazar imkanlarından istifadə edərək, soğan ixracımızı daha da artırmağa nail olacağıq".

Kənd təsərrüfatı sahəsi üzrə ekspert Nicat Nəsirli bizimlə söhbətində qeyd etdi ki, soğanla bağlı məsələ hər il bu vaxt, Novruz bayramı başa çatandan sonra problem olaraq qarşıya çıxır. Ənənəvi problemdir: "Son günlər apardığım müşahidələr deməyə əsas verir ki, bir çox bazarlarda, yerindən asılı olaraq, 1-1.50 manat və hətta 1.70 - 2 manat həddinə qədər soğanın qiyməti qalxa-qalxa gedir. Qiymət artımının müxtəlif səbəbləri var. Səbəblərin arxa planına baxmaq lazımdır. İlk növbədə onu qeyd etmək lazımdır ki, hər il ölkədə 200 min tondan artıq soğan istehsal olunur. Bu həcm ölkə tələbatını tam təmin etməyə imkan verir. Lakin bəzi problemlər soğanda ciddi itkilərə gətirib çıxarır. Biz bu qədər həcmi düzgün idarə edə bilmirik. Birinci növbədə həcmin böyük hissəsi yazlıq sortlardır. Əgər böyük hissə payızlıq sortlar olsaydı, təbii ki, onlar uzunmüddətli, davamlı olardı. İlin sonuna qədər saxlana bilərdi və nəticədə tələbat təmin olunardı. Məsələnin ikinci tərəfi odur ki, payızlıq sortlar az əkilir və bu sortlar saxlanmaya davamlıdır. Lakin ən ciddi problem odur ki, Azərbaycanda ixtisaslaşmış soğan saxlanc yerləri, xüsusiləşmiş anbarlarımız azdır. Məhsulu həmin anbarlara yığıb düzgün idarə edə bilmirik. Satış yerlərində də soğanı hər gün seçirlər. İtki normaları deyilən anlayış var. Soğan elə tərəvəz məhsullarından biridir ki, hər gün çəki itirir. Burada iqlim amili, insanın təsirləri var".

Ekspert bildirdi ki, soğanın qiymətinə təsir edən ciddi faktor bitki mühafizə tədbirləri ilə bağlıdır: "Soğanın qiymətinə təsir edən ciddi faktorlardan biri də ənənəvi soğan əkilən rayonlarımızda bitki mühafizə tədbirlərinin kifayət qədər vaxtında uğurlu həyata keçirilməməsidir. Biz görürük ki, soğan sahələrində məhsul yığılır günlərlə, hətta aylarla piramida kimi sahəyə yığırlar, müxtəlif ot, ələflə onu örtürlər. Bu zaman müxtəlif zərərvericilər formalaşır, torpaqda bakterial xəstəliklər var. Onlar məhsula keçir, sonra soğanın qabığının arxasında formalaşır və məhsulun böyük hissəsi sahədə satılmamış əldən gedir. Bütün bu faktorlar həm əkin strukturunun düzgün qurulmaması, eyni zamanda, yüksək texnologiya ilə təmin olunmuş saxlanc yerlərinin olmaması ilə bağlıdır.

**Həmsöhbətimiz onu da vurğuladı ki, soğanın Türkiyəyə ixracı cüzi olub və bunun qiymət artımına böyük təsiri yoxdur. "Aprelin sonunda yazlıq soğan çıxacaq və bununla da qiymətlər xeyli sabitləşəcək.**

***Günel CƏLİLOVA***

**Ticarət mərkəzlərində yanğınlar zamanı sahibkarlar ziyana düşür. Martın 26-da Nizami rayonundakı "Diqlas" ticarət mərkəzində baş verən yanğın daşınmaz əmlak sığortasının aktuallığını gündəmə gətirib. Ölkəmizdə icbari olan bu sığorta növü istər yaşayış, istərsə də qeyri-yaşayış obyektlərini dəymiş zərərdən sığortalayır.**

# "Diqlas" yanğını - Bakıdakı böyük ticarət mərkəzlərinin sığorta problemi gündəmdə...



***"Meqa Sığorta" - Anar Cahangirov:*** *"Bu gün ticarət mərkəzlərində fəaliyyət göstərən dükan sahibləri öz əmlakını sığorta etdirməyə maraq göstərmirlər"*

***"AtaSığorta" - Nigar İbrahimova:*** *"Diqlas" ticarət mərkəzində baş verən yanğın hadisəsindən sonra..."*

***Xəyal Məmmədxanlı:*** *"Vətəndaşlar öz əmlaklarına, pullarına, mülklərinə qarşı biganədirlər"*

***Ceyhun Əsgərov:*** *"İcbari sığorta ilə yanaşı, mülki məsuliyyət sığortası var ki, o da icbari şəkildə olmalıdır"*

Daşınmaz əmlakın icbari sığortası daşınmaz əmlakın yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədilə tətbiq edilir.

Bu gün ölkədə ticarət mərkəzlərinin, dükanların sahibləri öz obyektlərini sığortalamaqda maraqlı deyillər. Onlar mülklərini sığorta etdirməyə maraq göstərmirlər. Nəticədə hər hansı bir qəza hadisəsi baş verərsə, sahibkarlar maddi ziyanla üz-üzə qalırlar. Onlar daşınmaz əmlaklarını vaxtında sığorta etdirsələr, maddi ziyanları yüksək olmaz.

Qeyd edək ki, sığortalanan ticarət mərkəzi və ya digər obyektlərin konstruksiyası sığortalanır. Bu zaman ticarət obyektinin daxilində yerləşən dükanlar sığortalı hesab edilmir. Onların da sığortalı olması üçün həmin dükan sahiblərinin sığorta şirkətlərinə müraciət etməsi gərəkdir.

Maraqlıdır, sahibkarlıqla məşğul olanlar öz əmlakını sığorta etdirməyə niyə maraq göstərmirlər?

"Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin Anderraytinq və Təkrarsığorta Departamentinin direktoru Anar Cahangirov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün ticarət mərkəzlərində fəaliyyət göstərən dükan sahibləri öz əmlakını sığorta etdirməyə maraq göstərmirlər: "Çox az sayda sahibkar əmlakını sığorta etdirmək üçün şirkətə müraciət edib. Sahibkarların obyektlərini sığorta etdirməməsinin səbəbi onların bu sahədə məlumatlı olmamasıdır. Biz istərdik ki, ticarət mərkəzləri, dükanlar, müxtəlif iaşə obyektləri sığortalansın. Ancaq onların özü də bunda maraqlı olmalıdırlar. Təəssüf ki, sahibkarlar sığortanı ciddi qəbul etmirlər. Nəticədə xoşagəlməz hal baş verən zaman onlar ziyanla qarşı-qarşıya qalırlar. Bu kimi hadisələrin qarşısını almaq üçün sahibkarlar əmlakını sığorta etdirməlidirlər".

"AtaSığorta" ASC-nin Anderraytinq və Təkrarsığorta Departamentinin direktoru Nigar İbrahimova qəzetimizə açıqlamasında bildirdi ki, sahibkarlıqla məşğul olan daşınmaz əmlak sahibi icbari şəkildə öz əmlakını sığorta etdirməlidir. Ancaq sahibkarlar bu gün əmlaklarını sığorta etdirməyə təşəbbüs göstərmirlər: "Bunun səbəbi onların sığorta ilə bağlı yetərincə məlumatlı olmamasıdır".

N.İbrahimova hesab edir ki, "Diqlas" ticarət mərkəzində baş verən yanğın hadisəsindən sonra sahibkarlıqla məşğul olanlar əmlakını sığorta etdirməyə maraq göstərəcəklər.

Sığorta eksperti Xəyal Məmmədxanlı bizimlə söhbətində qeyd etdi ki, sığorta şirkəti xeyriyyə qurumu deyil ki, kimsə hansısa bədbəxt hadisəyə görə ziyan çəkdikdə ona kompensasiya versin: "Sığorta şirkətləri normal risq idarəetməsini həyata keçirirlər. Vətəndaş başa düşməlidir ki, belə hallarda yeganə kompensasiya vasitəsi sığortadır. Ancaq heç kim ticarət mərkəzlərinin sığortasını etməkdə maraqlı deyil. Bu gün Azərbaycanda fəaliyyət göstərən ticarət mərkəzlərini və bazarları sığortalamaq da mümkün deyil. Heç bir sığorta şirkəti o risqin altına girib məsuliyyəti öz üzərinə götürməz".

Həmsöhbətimizin sözlərinə görə, sahibkarlıqla məşğul olanlar öz əmlakını sığorta etdirməkdə maraqlı deyillər: "Çox təəssüf ki, Azərbaycanda sahibkarlar, vətəndaşlar öz əmlaklarına, pullarına, mülklərinə qarşı biganədirlər. Öz praktikamdan deyirəm. Dəfələrlə gedib insanların qapısını döyürük, deyirik ki, siz cəmi 50 manat ödəməklə 25 min manata evinizi sığortalaya bilərsiniz. Bu həm də məcburidir. Ancaq bizim insanımız deyir ki, heç nə olmaz, sonra edərik və sair. Belə deyib, bizi yola salırlar. Bir ay sonra nə baş verəcək? Uzaqda deyil, Kür daşacaq, yenə Kür Aran rayonlarında insanların əmlakına ziyan vuracaq. Yenə də vətəndaşların yadına sığorta düşəcək. Bu hər il bu şəkildə davam edir və edəcək. Heç bir zaman insanlar öz əmlaklarına diqqətli olmayacaqlar və sığortalamayacaqlar".

Sığorta mütəxəssisi Ceyhun Əsgərov bildirdi ki, sahibkarlıqla məşğul olan hər bir şəxs öz daşınmaz əmlakını icbari şəkildə sığortalamalıdır. İcbari sığortada 4 kateqoriya var ki, bu kateqoriyalara əsasən risqlər bölünür və onlara görə ödəniş təyin edilir: "İcbari sığorta ilə yanaşı, mülki məsuliyyət sığortası var ki, o da icbari şəkildə olmalıdır. Məsələn, kiminsə obyektində yanğın hadisəsi baş verə və bu yanğın qonşu obyektə keçə bilər. O zaman bu kimi halların qarşısını almaq üçün əmlak sahibi icbari şəkildə məsuliyyət sığortasına cəlb olunur".

Onun sözlərinə görə, qanun tələb edir ki, əmlakın qiyməti, yəni smeta dəyəri nə qədərdirsə, ən azı, o məbləğdə də sığortalanmalıdır. Bu zaman obyektin bazar qiyməti deyil, inşa qiyməti nəzərdə tutulur: "Əmlakın icbari sığortası zamanı sığorta şirkəti daşınmaz əmlakı təbii fəlakətlərdən, daxili subasmadan, yanğından və digər bu kimi hadisələrdən sığortalayır".

*Günel CƏLİLOVA*

**Xəbər verildiyi kimi, "Ali təhsil haqqında" qanun layihəsinin hazırlıqlarına başlanıb. Bu barədə Milli Məclisin (MM) Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli media nümayəndələrinə açıqlamasında deyib. O, "Ali təhsil haqqında" qanun layihəsi barədə məlumat verib:**

# Ali təhsil qanununda nələr olsun...



"Yaz aylarında - aprel və ya mayda "Ali təhsil haqqında" qanun layihəsinin hazırlanması ilə bağlı işçi qrupunu yaradıb daha konkret işə başlayacağıq. Həmin qanun layihəsini Milli Məclisin payız sessiyasında gündəliyə daxil etməyi daha məqsədəuyğun hesab edirik.

Bununla da 2009-cu ildə qəbul olunan "Təhsil haqqında" Qanunda öz əksini tapmış təhsilin bütün pillələri ilə bağlı qanun layihələrini ölkə ictimaiyyətinə, elm və təhsil işçilərinə təqdim etmiş olacağıq".

***Kamilə Əliyeva:*** *"Ali təhsil haqqında" qanun layihəsi hazırlanarkən dünya təcrübəsi nəzərə alınacaq"*

***İlqar Orucov:*** *"...ali təhsilin forma və məzmununun dəyişdirilməsinə ciddi ehtiyac var"*

Yeni hazırlanacaq "Ali təhsil haqqında" qanun barəsində məlumat verən Elm və təhsil komitəsinin üzvü, millət vəkili Kamilə Əliyeva "Bakı-Xəbər"ə açıqlamasında bunları qeyd etdi: "Ali təhsil haqqında" qanun layihəsi üzərində işlər başlanmaq üzrədir. Hələ ki, işçi qrupu yaradılmayıb. Aprel ayında işçi qrupunun yaradılması nəzərdə tutulur. Qanun layihəsi hazırlanarkən dünya təcrübəsi nəzərə alınacaq. İşçi qrupu qanun layihəsi üzərində işlədikdən sonra komitə iclasında layihə müzakirəyə çıxarılacaq. Hazırda biz "Ali təhsil haqqında" qanun layihəsinin üzərində iş üçün biz hazırlaşırıq".

Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, AMEA Gənclərin İntellektual İnkişaf Mərkəzinin direktoru İlqar Orucov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, "Ali təhsil haqqında" qanunun qəbul olunması vacib məsələdir: "Ali təhsil tək Azərbaycan üçün deyil, bütün ölkələr üçün əhəmiyyətlidir. Hər bir dövlətin inkişafında ali təhsilin rolu böyükdür. Yeni hazırlanacaq "Ali təhsil haqqında" qanunda təhsilin keyfiyyətinin artırılması konkret müddəalarla əks olunmalıdır".

**Həmsöhbətimizin sözlərinə görə, Azərbaycan ali təhsili sovet təhsil sistemindən qalmadır. Ali təhsilin forma və məzmununun dəyişdirilməsinə ciddi ehtiyac var. Hazırda ölkədə ali təhsilin keyfiyyəti qənaətbəxş səviyyədə deyil.**

**Yeni qanun bu sahədə yaşanan problemləri həll edəcək. Qanun qəbul olunandan sonra ali təhsil sahəsində müsbət dəyişikliklərin şahidi olacağıq.**

*Günel CƏLİLOVA*

# Azərbaycanda növbəti unikal hadisə - dustaqlar üçün peşə təhsili standartları rəsmiləşdi...

***Əlimәmməd Nuriyev:** "Cəzaçəkmə müəssisələrində peşə standartlarının tətbiq olunması məşğulluq probleminin həllinə səbəb olacaq"*

**Məlum olduğu kimi, Nazirlər Kabineti "Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları"nı təsdiq edib.**



*"...yeni standartlar sayəsində cinayətkarlar köhnə vərdişdən uzaqlaşıb, sənətə, peşəyə maraq göstərəcəklər"*

Standartlar cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində peşə təhsilinin məzmununu; peşə təhsilinin idarə olunmasını; maddi-texniki bazasını; infrastrukturunu; təhsilverənlərin keyfiyyət göstəricilərini; təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir.

Qeyd edək ki, bu standartlar Azərbaycan ərazisində cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən bütün peşə təhsili müəssisələrinə və xüsusi peşə təhsili müəssisələrinə şamil olunur və peşə təhsili sahəsində ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasında və tətbiqində əsas tutulur.

Onu da bildirək ki, cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində təhsilin keyfiyyətinə dövlət nəzarəti Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

"Cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində tətbiq edilən dövlət peşə təhsili standartları"nın təsdiq edilməsinin əhəmiyyəti haqqında danışan Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əlimәmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, peşə standartları ilə bağlı boşluq var idi: "Yeni standartlar yaradılmalı idi. Hər bir müstəqil dövlətin peşələrlə bağlı müasir standartları olmalıdır. Cəzaçəkmə müəssisələrində peşə standartlarının tətbiq olunması məşğulluq probleminin həllinə səbəb olacaq. Məlumat üçün bildirim ki, Prezident İlham Əliyevin məşğulluğun artırılması ilə bağlı imzaladığı sərəncamda qeyd olunur ki, məhkumlar arasında məşğulluq artırılmalıdır. Məşğulluğun artırılması ilə bağlı müəyyən peşə vərdişləri də olmalıdır. Nəzərə almaq lazımdır ki, bəzi məhkumlar cinayət edərkən hər hansı bir peşəyə malik deyildilər. Yeni tətbiq olunacaq standartlar imkan verəcək ki, daha peşəkar, ixtisaslı kadrlar hazırlansın. Məlumdur ki, cəzaçəkmə müəssisələrində müxtəlif sexlər fəaliyyət göstərir. Məhkumlar mənimsədikləri peşə sayəsində sənət öyrənəcəklər, həm də qazanc əldə edəcəklər".

Həmsöhbətimiz onu da vurğuladı ki, cəzaçəkmə müəssisələrində tətbiq olunacaq yeni standartlar sayəsində cinayətkarlar köhnə vərdişdən uzaqlaşıb, sənətə, peşəyə maraq göstərəcəklər. Həmçinin, məhkumlar azadlığa çıxandan sonra mənimsədikləri peşə sayəsində tez bir zamanda işlə təmin olunacaqlar.

*Günel CƏLİLOVA*

# Azərbaycan Rus Dram Teatrının dünyada analoji teatrlarla əlaqələri...

***İlham Məmmədov:** "Teatrımız başqa ölkələrdən aktyorlar, aktrisalar, rejissorlar, rəssamlar dəvət edir və birgə tamaşalar hazırlayırıq"*

**Müasir Azərbaycan teatrlarının qarşısında duran vəzifələrdən biri xarici ölkə teatrları ilə əməkdaşlıq etmək məsələsidir. Bəzi teatrlar buna cəhd göstərsələr də, teatrların əksəriyyəti bu sahədə əməkdaşlığa, aktyor, rejissor mübadiləsinə meyl göstərmir.**



*"Hazırda teatrımızda Sankt-Peterburq teatrlarından birinin rejissoru uşaq tamaşası hazırlayır"*

Paytaxtımızda 100 ilə yaxındır fəaliyyət göstərən Rus Dram Teatrı ölkənin rusdilli tamaşaçılarına maraqlı tamaşalar təqdim edir. Səməd Vurğun adına Akademik Rus Dram Teatrı keçmiş ittifaq məkanına daxil olan rusdilli teatrlarla nə kimi əməkdaşlıq edir? Bu teatr aktyor, rejissor mübadiləsinə maraq göstərirmi?

S.Vurğun adına Akademik Rus Dram Teatrının direktor müavini İlham Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu teatr zaman-zaman başqa ölkələrin teatrları ilə sıx şəkildə əməkdaşlıq edib. Vaxtaşırı olaraq qastollara getdiklərini deyən İ.Məmmədovun sözlərinə görə, Rusiyanın, Gürcüstanın, Belarusun, Ukraynanın və digər ölkələrin də teatrları Rus Dram Teatrının qonağı olur, burada tamaşalar təqdim edirlər.

O qeyd etdi ki, 1920-ci ildən fəaliyyət göstərən Rus Dram Teatrı böyük ənənəyə malikdir. Bu yaxınlarda aktyor mübadiləsi çərçivəsində Belarus aktyorlarının ilk dəfə Rus Dram Teatrının səhnəsində çıxış etdiyini deyən İ.Məmmədov vurğuladı ki, bu, sözügedən ölkənin "Tri T format" teatrının yaradıcı kollektivinin Bakıda qastrol səfərində olduğu zaman baş tutub. Onların Akademik Dövlət Rus Dram Teatrında israilli yazıçı Efraim Kişonun əsəri əsasında hazırlanan "Nikah müqaviləsi" adlı musiqili komediya nümayiş etdiriblər.

Azərbaycanla Belarus arasında mədəniyyət və incəsənət sahəsində uğurlu əməkdaşlıq mövcuddur.

Teatrın Sankt-Peterburqa, Tiflisə və digər şəhərlərə qastrol səfərləri zamanı qarşılıqlı əməkdaşlıq məsələlərinin də önə çəkildiyini deyən İ.Məmmədovun sözlərinə görə, teatrlar arasında əməkdaşlıq mübadiləsinin faydaları böyükdür. "Bizim teatr mütəmadi olaraq başqa ölkələrin rus dram teatrları ilə əməkdaşlıq edir. Teatrımız başqa ölkələrdən aktyorlar, aktrisalar, rejissorlar, rəssamlar dəvət edir və birgə tamaşalar hazırlayırıq. Biz işimizi yalnız aktyor və rejissor mübadiləsi çərçivəsində qurmuruq, həmçinin, quruluşçu rəssamların və sair mübadiləsini həyata keçiririk. Hazırda teatrımızda Sankt-Peterburq teatrlarından birinin rejissoru uşaq tamaşası hazırlayır, martın 30-da həmin tamaşanın premyerası olacaq. Finlandiyadan gələn azərbaycanlı rejissor da bizdə tamaşa qoyur. Demək istəyirəm ki, həm aktyorları, həm aktrisaları, həm rejissorları, həm rəssamları dəvət edirik. Qarşılıqlı mübadilə bizə çox böyük təcrübə qazandırır. Bu əməkdaşlıq nəticəsində onlar bizdən, biz də onlardan öyrənirik, yenilikləri tətbiq edirik" - deyə bildirən İ.Məmmədov hesab edir ki, qarşıdakı aylarda da bu cür mübadilələr olacaq.

O, həmçinin, vurğuladı ki, Rus Dram Teatrı akademik teatr statusu aldıqdan sonra fəaliyyətini daha da genişləndirib və tamaşaçılara daha maraqlı tamaşalar təqdim edəcək.

*İradə SARIYEVA*

№ 54 (3952) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

28 MART 2019-cu il

## Dağıstanda Nadir şahın hədiyyə etdiyi Quran kitabı aşkar edildi



**Dağıstanda Nadir şahın hədiyyə etdiyi Quran kitabı aşkar edilib. "AZƏRTAC" bildirir ki, Rusiya Elmlər Akademiyası Dağıstan Elmi Mərkəzinin Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun Şərq Əlyazmaları Fondunda rəqəmli arxiv yaradılması prosesi zamanı Nadir şahın Dağıstan hakimlərindən birinə hədiyyə etdiyi yeddicildlik Quran kitabı, İncilin VII əsrə aid gürcü dilinə tərcüməsi və digər unikal kitablar, sənədlər aşkar edilib.**

Şərq Əlyazmaları Fondunun müdiri Şamil Şıxəliyev jurnalistlərə bildirib ki, tezliklə elektron kataloq yaradılacaq və arxivdə saxlanılan ümumilikdə 40 mindən çox əlyazmanın, o cümlədən 1009-cu ildən 1930-cu ilədək olan dövrdə müsəlman elmləri sahəsini əhatə edən 3 mindən çox əlyazmanın rəqəmsal surətləri internet istifadəçilərinə təqdim olunacaq.




## "Bakcell" Novruz bayramını Azərbaycan xalqı ilə birgə keçirib

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" Novruz bayramı münasibətilə ümumxalq şənliyinə qatılıb. Şirkət "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən təşkil edilmiş "Bahar Qalası" festivalının sponsoru olub.**

Mart ayının 20-dən 26-na kimi davam etmiş ənənəvi "Bahar Qalası" festivalında milli-tətbiqi sənət məhsulları, rəsm əsərləri, yerli sənətkarların hazırladıqları əl işləri, suvenirlərin satış-sərgisi nümayiş olunub. Festival çərçivəsində təşkil edilmiş konsert proqramı, tamaşaçılara həm milli, həm də digər xalqların nümayəndələrinin ifasında rəqslər və nəğmələr təqdim edilib, Azərbaycan estradasının ulduzlarının ifasında sevilən mahnılar səsləndirilib. Həmçinin, martın 23-də "Bahar Qalası" festivalının xüsusi qonağı olan Türkiyənin gənc estrada ulduzu Aleyna Tilki konsert proqramı ilə çıxış edib.

Azərbaycan xalqına hər zaman yaxın olan "Bakcell" şirkəti ölkənin milli dəyərləri və mədəni sərvətlərinə bağlılığını bir daha nümayiş etdirərək "Bahar Qalası" festivalının sponsoru olub. Festival çərçivəsində İçərişəhərdə quraşdırılmış "Bakcell" stendinə gələn qonaqları və xüsusi olaraq uşaqları müxtəlif sürprizlər, əyləncələr və maraqlı hədiyyələr gözləyirdi. Həmçinin, burada qonaqlar "Bakcell"in məhsul və xidmətləri barədə məlumat əldə etmək və pulsuz mobil nömrə almaq imkanına malik oldular.

Qeyd edək ki, İçərişəhərdə keçirilmiş festival və ümumxalq Novruz şənliyində minlərlə vətəndaş və ölkəmizin qonaqları iştirak edib.

## Elan

Azərbaycan Respublikası, Abşeron rayonu, Mehdiabad qəsəbəsi, 20 Yanvar küçəsi, ev 14, mənzil 56 ünvanı üzrə Abşeron rayon RDQİ və MHQİ-nin 194 nömrəli özəlləşdirmə qərarı ilə 15 dekabr 2000-ci il tarixdə Hacıyev Əbdürrəhman Canı oğlunun adına verilmiş №17201 qeydiyyat vəsiqəsi (texniki pasport) itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Qurbanov Rafiq Ramazan oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Bideyiz kənd sakini İsgəndərov Fazil Aman oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0103 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Süleymanova Lyudmila Neymət qızının adına, Abşeron rayonu, Xırdalan şəhəri, Ə.Vəliyev küçəsi, ev 15 A ünvanının çıxarışı (seriya RX № 1107261) itdiyi üçün etibarsız sayılır.

Nağıyev Sərxan Yusif oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Abbasov Məmmədtağı Məşdi oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, Asif Məmmədov küçəsi, ev 31 ünvanına verilmiş çıxarış (seriya RX № 0627843) itdiyi üçün etibarsız sayılır.

Fətiyeva Nərgiz Ənvər qızının adına, Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, 5/825 saylı sahəyə verilmiş çıxarış (seriya MA № 0224548) itdiyi üçün etibarsız sayılır.

Mirzəyev Elvin Eldar oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Həziyev Arslan Aslan oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Şövkət Məmmədova küçəsi, ev 7, mənzil 148 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Vəlibəyova Firuzə İbrahim qızına Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abbasova Minayə Fəxrəddin qızının adına, Bakı şəhəri, Nərimanov rayonu, Əbdüləzəl Dəmirçizadə küçəsi 14 ünvanında yerləşən qeyri-yaşayış sahəsinə verilmiş çıxarış (seriya RX № 1037951) itdiyi üçün etibarsız sayılır.

**Etibar Hümbətov, Tural Əliyev, Mahmud Davudov və Rasim Camalov yaxınları Bəhruz Bəylərovun anası Qəmzə xanımın vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**
**Allah rəhmət eləsin!**




**Qoç** - Bu yaxınlarda başladığınız işi uğurla başa vurmaq üçün var qüvvənizlə çalışın. Yorulmağınız istisna deyil. Lakin ruhdan düşməyin, ətalətə qapılmayın, süst olmayın.


**Buğa** - Yolda, işdə, ünsiyyətdə ehtiyatlı, sayıq olun. Sizə birbaşa dəxli olmayan işlərə qatılmayın. Danışıq tərzinə fikir verin, gərəksiz inadkarlıq etməyin. Günün ikinci yarısında ev işləri ciddi diqqət tələb edəcək.


**Əkizlər** - Tez və dərhal qazanc götürməyə, mənfəət əldə etməyə çalışmayın. Belə olarsa, bel bağladığınız gəlirdən ən son anda məhrum ola bilərsiniz. Hər məsləhətə uymayın.


**Xərçəng** - Mütləq şəkildə niyyətinizə çataraq planınızı reallaşdırmağa çalışın. Cəsur, məqsədyönlü, ağıllı və məntiqli olun. Fəal çalışın, irəliləyin, yerinizdə saymayın, süst və ətalətli olmayın.


**Şir** - Gün ərzində emosional məzmunlu addımlar ataraq düşünülməmiş qərarlar qəbul etməyin. Günün ikinci yarısında diplomatik davranın, özünütənqidi unutmayın. Yaşlılara saygı ilə yanaşın.


**Qız** - Nəyin bahasına olursa-olsun, başlanmış işi başa vurun. Gərgin və emosional şəraitdə riskli addımlar ataraq müstəqil qərarlar qəbul edin. İnciklıyə vaxt sərf etməyin, əks təqdirdə işlər xoşagəlməz məcraya yönələcək.


**Tərəzi** - Məqsədə yalnız maneələri dəf etməklə çatmaq mümkündür. Fəal olun, planların həyata keçirilməsi prosesində əsla geri çəkilməyin, kimsəyə güzəştə getməyin, qətiyyətli və iradəli davranın.


**Əqrəb** - Yaranan şərtlər situasiyanı formalaşdırır. Rahat və harmonik yaşama nə qədər can atsanız da, şərtlərlə barışmaq məcburiyyətindəsiniz. Gərgin iş qrafikində çalışmağa hazır olun.


**Oxatan** - Mövqelərinizi qorumaq və irəliləyişə nail olmaq üçün hisslərinizə nəzarət edin. Qorxu, qəzəb, qısqanclığın öhdəsindən gəlin. Belə hisslər uğur şanslarınızı azalda bilər.


**Oğlaq** - Bədxahın avantürasına, rəqibin yaramazlığına, işlərin çətinləşməsinə hazırlaşın. Seçim imkanlarınız çox məhduddur, çünki, baş verənlərin təşəbbüskarları başqalarıdır.


**Dolça** - Günün ilk yarısından etibarən qətiyyətlə irəliləyin, əzmli və inadkar olun. Sizdən asılı nə varsa, yerinə yetirin. Sükan arxasında, yolda, ictimai nəqliyyatda ehtiyatlı olun. Texniki problemlər və ətrafınızdakı insanlarla münaqişə ola bilər.


**Balıqlar** - Gün ərzində hissləriniz sınağa çəkiləcək. Hətta, ən sakit adam olsanız belə, qıcıqlana və hirslənə bilərsiniz. Şəxsi münasibətlərlə yanaşı, işgüzar, maliyyə, peşəkar sahələrdə münaqişələr istisna deyil.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Marsda sivilizasiyanı sübut edən fakt...



**"Opportunity" kosmik aparatı 15 il ərzində Yerə unikal fotolar göndərib.**

"Ölkə.az" bildirir ki, fotolar o qədər çox olub ki, bu gün də sensasiyaya səbəb olur. Virtual arxeoloqlar fotoları diqqətlə incələdikdən sonra müxtəlif kəşflərə imza atırlar. Fotoların birində müstəqil tədqiqatçılar qumanoid mumiyasına çox bənzəyən bir əşya tapıblar. Mars fotosunda kəşf edilən bu heykəl internet şəbəkəsində əsl tufan effekti yaradıb. Sosial şəbəkənin bəzi istifadəçiləri isə daha real versiya irəli sürüblər. Əgər bu marslı mumiyası deyilsə, qədim yunan heykəlinə çox bənzəyir. Onu isə qədim "marslı heykəli adlandırıblar. Əgər bu belədirsə, deməli, Marsda mövcud olmuş və ya hazırda da yaşayan sivilizasiyadan danışmaq mümkündür. Çünki bir versiyaya əsasən, qlobal fəlakətdən sonra marslılar yeraltı şəhərlərə köçüblər.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 5200*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.